HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

# Vergilər

№ 28 (922) ▪ 1 avqust 2018 | www.vergiler.az | Qiyməti: 60 qəp.

# Əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün yaxşı imkanlar mövcuddur

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 30-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



Dövlətimizin başçısı Azərbaycan-Avropa İttifaqı əlaqələrinə toxunaraq, bu yaxınlarda Brüsselə səfərini və Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskla keçirdiyi görüşünü məmnunluqla xatırlayaraq qeyd edib ki, həmin səfər zamanı aparılan səmərəli danışıqlar və Azərbaycanla Avropa İttifaqı arasında «Tərəfdaşlıq prioritetləri» sənədinin paraflanması əməkdaşlığın gələcək inkişafı üçün önəmlidir. Prezident İlham Əliyev qeyd edib ki, bu sənədin paraflanması, eyni zamanda, Azərbaycanın Avropa ilə əlaqələrə böyük əhəmiyyət verdiyini bir daha nümayiş etdirir. Azərbaycan-Avropa İttifaqı əlaqələri gündəliyinin geniş olduğunu vurğulayan dövlətimizin başçısı əməkdaşlığın uğurla inkişaf etdiyini deyib. Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan, eyni zamanda, NATO-nun etibarlı tərəfdaşıdır və bu təşkilat ölkəmizin Əfqanıstandakı sülhməramlı əməliyyatlarda iştirakını yüksək qiymətləndirir.

Toivo Klaar Prezident İlham Əliyevlə Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun görüşlərinin və Brüsseldəki tədbirlərin çox yaxşı səviyyədə keçdiyindən məlumatlı olduqlarını vurğulayıb. O, Avropa İttifaqı-Azərbaycan əlaqələrinin genişləndiyini qeyd edərək, əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün yaxşı imkanların mövcud olduğunu deyib. Bu baxımdan, qonaq Azərbaycanla Avropa İttifaqı arasında yeni sazişin yaxın zamanlarda imzalanacağına ümidvar olduğunu bildirib.

Söhbət zamanı əməkdaşlığın perspektivləri, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər, nəqliyyat, ticarət, turizm sahələrində əlaqələrin inkişaf etdirilməsi ətrafında fikir mübadiləsi aparılıb.

# İlham Əliyev qayğısı

**İdmançılarımız dünyanın ən mötəbər yarışlarında uğurla çıxış edərək ölkəmizin adını daim uca tuturlar. Yüksək nailiyyətlər qazanılan yarışlar içərisində ən nüfuzlusu isə dünyanın məşhur və 4 ildən bir keçirilən kütləvi idman müsabiqəsi - yay olimpiya oyunlarıdır. Dünyada müxtəlif millətlərin nümayəndələrini bir araya toplayaraq onların ədalətli oyun prinsipləri əsasında idman mübarizəsinə qoşulmasını təmin etməsi ilə seçilən olimpiya oyunları ən mötəbər beynəlxalq tədbirlərdən biridir. Azərbaycanda isə Olimpiya hərəkatının inkişafı birbaşa Prezident İlham Əliyevlə bağlıdır.**

### İdmanın sürətli yüksəliş dövrü

Müstəqilliyin ilk illərində ölkəmizin düşdüyü böhranlı vəziyyət və laqeyd münasibət digər sahələr kimi, idman komplekslərinin dağılmasına, tanınmış idmançılarımızın başqa dövlətlərin bayraqları altında beynəlxalq yarışlarda iştirakına, ölkənin idman potensialının məhvinə gətirib çıxarmışdı.

Ulu öndər Heydər Əliyevin idman sahəsində həyata keçirdiyi siyasət 1997-ci il iyulun 31-də yeni mərhələyə qədəm qoydu. Rəhbərlik etdiyi sahələrdə uğurlara imza atan cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin (MOK) prezidenti seçilməsi idman sahəsində həyata keçirilən dövlət siyasətinin yeni şəraitdə gerçəkləşməsinə böyük imkanlar açdı.

Elə ilk günlər göstərdi ki, MOK çox düzgün və qətiyyətli addım atıb. MOK ilk növbədə mövcud durumu düzgün qiymətləndirib, idmanımızı dirçəltməyin yollarını dəqiq müəyyənləşdirib dərhal hərəkətə keçməyə başladı. Olimpiya hərəkatının real vəziyyəti öyrənildi, mövcud problemlər aşkara çıxarılaraq araşdırıldı.

Milli Olimpiya Komitəsinin görməli olduğu işlər həddən artıq çox idi. Bunların sırasında beynəlxalq əlaqələrin qurulması və genişləndirilməsi olduqca vacib idi. Qarşıya çıxan bütün problemləri bacarıqla dəf edərək, İlham Əliyev Olimpiya hərəkatının məqsəd və vəzifələrini, fəaliyyət sisteminin ardıcıl və səmərəli qurulmasını müəyyənləşdirdi. Beynəlxalq əlaqələrin möhkəmlənməsi bu sistemin mütləq tərkib hissəsi olmalı idi. Çünki bəşəri mahiyyətli olimpiya ideyalarına söykənərək beynəlxalq münasibətlər və mübadilə sistemində möhkəm yer tutmaqla tək idmanda deyil, hər sahədə Azərbaycanın dünyəvi imicini yüksəltmək lazım gəlirdi.

Beləliklə, cənab İlham Əliyevin MOK-un prezidenti seçilməsindən sonra ölkədə bədən tərbiyəsi və idman geniş vüsət aldı, respublikamız beynəlxalq Olimpiya hərəkatına qoşuldu, bu sahədə sistemli şəkildə işlər görüldü.

İndi Azərbaycanda keçirilən Avropa, dünya çempionatları silsilə xarakter daşıyır. Azərbaycanın 2015-ci ildə ilk Avropa Oyunlarının, 2016-cı ildə Şahmat Olimpiadasının, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarının, futbol üzrə «Avro-2020»nin final mərhələsinin 4 oyununun Bakıda keçirmək hüququnu əldə etməsi dünya idman ictimaiyyətinin ölkəmizə marağının artmasından irəli gəlir.

### Son 18 ildə 43 olimpiya idman kompleksi istifadəyə verilib

MOK-un fəaliyyətində canlanma təkcə olimpizmin təbliği, idmançılarımızın olimpiadalarda iştirakını təmin etməklə bitmədi, həm də maddi-texniki bazanın gücləndirilməsi sahəsini əhatə etdi. Ölkədə idmanın sürətli inkişafını təmin etmək və onun perspektivlərini genişləndirmək məqsədilə mövcud maddi-texniki bazanın vəziyyətində dönüşün əsası qoyuldu.

MOK 1999-cu ildən öz obyektlərinin tikintisinə başladı və artıq 2000-ci ilin oktyabrında Bakıda ilk olimpiya kompleksinin açılış mərasimi oldu. Paytaxtdan başlayan quruculuq bölgələrə doğru istiqamətləndi. Bölgələrdə olimpiya idman komplekslərinin tikilib istifadəyə verilməsi idman hərəkatının tərəqqisi üçün çox önəmli rol oynayır.

Bütövlükdə 2000-ci ildən indiyədək ölkədə 43 olimpiya idman kompleksi, həmçinin ixtisaslaşmış idman qurğuları tikilib istifadəyə verilib, mövcud idman obyektləri yenidən qurulub. İndi, demək olar ki, respublikamızın bütün bölgələrində olimpiya kompleksləri fəaliyyət göstərir. Azərbaycanın ucqar rayonlarında müxtəlif idman növləri ilə məşğul olmaq üçün mövcud şərait var.

Fərəhli haldır ki, respublikamız hazırda Avropada ən böyük idman qurğularına sahibdir. 2015-ci və 2017-ci illərdə paytaxtımızda təşkil olunan Avropa və İslam Həmrəyliyi Oyunlarında bir-birindən möhtəşəm yarışlara evsahibliyi edən 18 arena (Bakı Olimpiya Stadionu, Bakı Su İdmanı Sarayı, Milli Gimnastika Arenası, Bakı Atıcılıq Mərkəzi, Heydər Əliyev adına İdman Sarayı, Tofiq Bəhramov adına Respublika Stadionu, Bakı İdman Sarayı, «Baku Crystal Hall», Mingəçevir «Kür» Olimpiya Tədris İdman Mərkəzi, BMX Veloparkı, Su Polosu Arenası, Çimərlik Arenası, Basketbol Arenası, Dağ Velosipedi Veloparkı, Bilgəh çimərliyi, Şose) maraqlı idman mübarizələrinin şahidi oldu.

### 6 olimpiada, 44 medal

İlham Əliyevin MOK-un prezidenti seçilməsindən cəmi 3 il sonra - 2000-ci ildə Azərbaycan idmançıları Sidneydə keçirilən Yay Olimpiya Oyunlarında çıxış etdilər və çox möhtəşəm tarixi bir zəfərə imza atdılar. 199 ölkənin qatıldığı XXVII Yay Olimpiya Oyunlarında Azərbaycan müstəqil dövlət kimi ikinci dəfə iştirak edirdi.

Ölkəmiz Sidneydə 31 idmançı ilə təmsil olunurdu. Komandamıza ilk medalı qadınlar arasında stend atıcılığı yarışlarında Zemfira Meftahəddinova qazandırdı. Onun çıxış etdiyi idman növü ilk dəfə olaraq Olimpiya Oyunlarının proqramına daxil edilmişdi. Zemfira bu növdə iki Olimpiya rekordu müəyyən etdi.

Ölkəmizə ikinci qızıl medalı Atlanta oyunlarının gümüş mükafatçısı, güləşçi Namiq Abdullayev gətirdi. «Sidney-2000» Yay Olimpiya Oyunlarında Azərbaycan boksunun salnaməsinə də ilk Olimpiya medalı yazıldı. 19 yaşlı gənc boksçu Vüqar Ələkbərov bürünc medala sahib oldu. İki qızıl və bir bürünc medal qazanan Azərbaycan medal alan ölkələr arasında 34-cü yeri, Avropa ölkələri arasında isə 23-cü yeri tutdu. Azərbaycan idmanı Sidney sınağından zəfərlə çıxdı.

«Afina-2004» Olimpiya Oyunlarında Azərbaycan idmanı yeni şanlı səhifəsini yazdı. 21-ci minilliyin ilk Olimpiya Oyunlarında 12 idman növündə 38 idmançı ilə təmsil olunan Azərbaycan milli komandası bu möhtəşəm yarışdan vətənə 1 qızıl, 4 bürünc medalla qayıtdı.

Atletlərimiz XXVIII Yay Olimpiya Oyunlarında 5 medal (1 qızıl, 4 bürünc) qazandılar. Yunan-Roma güləşi üzrə 66 kq çəki dərəcəsində 22 yaşlı Fərid Mansurov fəxri kürsünün ən yüksək pilləsinə qalxaraq qızıl, atıcılıq üzrə yarışlarda kiçik çaplı tapançadan 25 metr məsafəyə atəş açmada İradə Aşumova və stend atıcılığı üzrə təmsilçimiz, «Sidney-2000» Olimpiadasının qızıl mükafatçısı Zemfira Meftahəddinova Azərbaycan yığmasının hesabına iki bürünc medal yazdırdılar.

Afinada yarımfinala yüksələn ilk Azərbaycan boksçusu Ağası Məmmədovun çəki problemi onu bürünc medalla kifayətlənməyə məcbur etdi. Ölkəmizin aktivinə yazılan 4 bürünc medaldan biri isə digər boksçumuz Fuad Aslanovun payına düşdü.

XXIX Pekin Yay Olimpiya Oyunlarında ölkəmiz 12 idman növündə 44 atletlə təmsil olunurdu. Komandamız Olimpiya Oyunlarında ilk dəfə olaraq, hər üç əyarda medallar qazandılar.

Ölkəmizə Olimpiya qızılını cüdoçumuz Elnur Məmmədli (73 kq) qazandırdı. Finala qədər bütün rəqiblərinə vaxtından əvvəl ipponla qalib gələn E.Məmmədli həlledici matçda koreyalı idmançını 13 saniyəyə məğlub edərək 73 kq çəkidə ən güclü oldu. Gümüş medalları Yunan-Roma güləşində Rövşən Bayramovla (55 kq) Vitali Rəhimov (60 kq) qazandı.

Sərbəst güləşçimiz Xetaq Qazyumov (96 kq), qadın güləşində Mariya Stadnik (48 kq), boksda Şahin İmranov (57 kq) və cüdoda Mövlud Mirəliyev (100 kq) bürünc medala layiq görüldülər. Beləliklə, Pekində keçirilən XXIX Yay Olimpiya Oyunlarında Azərbaycan yığması 7 medalla (1 qızıl, 2 gümüş, 4 bürünc) 204 ölkə arasında medalların sayına görə 27-ci, medalların növünə görə isə 39-cu yeri tutdu.

London Olimpiya Oyunlarında isə Azərbaycan idmançıları 10 medal qazandılar. Bununla da 204 ölkə arasında 30-cu yerdə qərar tutan ölkəmiz medalların ümumi sayına görə 25-ci sırada yer tutdu. İki qızıl, iki gümüş və altı bürünc əldə edən idmançılarımız bu göstərici ilə Avropa ölkələri arasında 15-ci, MDB-də isə 5-ci yerdə idi.

Londonda Toğrul Əsgərov və Şərif Şərifov qızıl, Rövşən Bayramov və Mariya Stadnik gümüş medalların sahibi oldular. Digər üç güləşçimiz Emin Əhmədov, Yuliya Ratkeviç və Xetaq Qazyumov isə mübarizələrini bürünc medalla başa vurdular. Digər üç bürünc medalı isə ağırlıqqaldıran Valentin Xristov və boksçularımız Teymur Məmmədovla Məhəmmədrəsul Məcidov qazandılar.

2016-cı ildə Braziliyanın Rio-de-Janeyro şəhərində təşkil edilən XXXI Yay Olimpiya Oyunlarına Azərbaycan 56 idmançı ilə qatıldı. İlk dəfə rekord sayda - 18 medal (1 qızıl, 7 gümüş, 10 bürünc) qazanıldı. Dünyanın 207 ölkəsindən 11 mindən çox idmançının iştirak etdiyi turnirə respublikamız 56 idmançı ilə qatılmışdı. Azərbaycan medal sayına görə 87 mükafatçı dövlət arasında 15-ci yeri tutaraq islam, türk və Qafqaz ölkələri arasında lider oldu.

Pəhləvanlarımız bu dəfə də 9 medal qazandılar. Güləş yığmamızın aktivinə 3 gümüş medalı pəhləvanlar (Mariya Stadnik, Toğrul Əsgərov və Xetaq Qazyumov) əlavə etdilər. Digər 6 güləşçimiz - Cəbrayıl Həsənov, Rəsul Çunayev, Nataliya Sinişin, Sabah Şəriəti, Şərif Şərifov və Hacı Əliyev isə çıxışlarını bürünc medalla başa vurdular.

Cüdoçular bu dəfə etimadı doğrultdular. Rüstəm Orucov və Elmar Qasımov 4 illiyin zirvə yarışını gümüş medalla başa vurdular.

### Mötəbər turnirlərin dəyişilməz ünvanı

Bu gün dünyanın ən nüfuzlu beynəlxalq idman yarışlarının təşkili ölkəmizə böyük imic qazandırıb. «Bakı-2015» ilk Avropa Oyunlarının və IV İslam Həmrəyliyi Oyunlarının da Azərbaycana həvalə edilməsi son illər bu sahədə görülən işlərə verilən ən yüksək qiymətdir.

Son üç ilə nəzər yetirdikdə isə ən böyük idman hadisələrindən biri sözsüz ki, tarixdə ilk dəfə təşkil olunan Avropa Oyunlarının 2015-ci ildə Bakıda keçirilməsi idi. Ölkəmiz 2 il davam etdirilən yüksək səviyyəli hazırlıq işlərindən sonra Avropanın 50 ölkəsindən 6 mindən çox idmançının mübarizə apardığı bu idman yarışını layiqincə təşkil etməklə tək özünün deyil, «köhnə qitə»nin idman tarixinə möhürünü vurdu. Çünki indiyədək yalnız Avropa ölkələrinin təmsil olunduğu bu cür möhtəşəm idman yarışması keçirilməmişdi.

Nümunəvi və qüsursuz təşkilatçılığı, möhtəşəm açılış və bağlanış mərasimləri ilə yaddaqalan I Avropa Oyunları keçirildiyi günlərdə (12-28 iyun) dünyanın əsas idman hadisəsinə çevrildi. 21-i qızıl, 15-i gümüş və 20-si bürünc olmaqla qazandığı 56 medalla Azərbaycan I Avropa Oyunlarının ikincisi oldu. Bunun bir daha şahidi olduq ki, ölkəmizdə həyata keçirilən idman siyasəti öz bəhrəsini verir.

Ötən il mayın 12-22-də isə Azərbaycan daha bir nüfuzlu tədbirə - sayca IV İslam Həmrəyliyi Oyunlarına evsahibliyi etdi. Həmin ərəfədə milyonlarla insanın qəlbi Azərbaycanda döyündü. Yarış günlərində paytaxtımız müsəlman aləminin idman mərkəzinə çevrildi. 54 ölkədən 3000-dən çox idmançının iştirak etdiyi yarışlarda Azərbaycan atletləri 75-i qızıl, 50-si gümüş, 37-si bürünc olmaqla, 162 medal qazanaraq 1-ci yeri tutdular. Prezident İlham Əliyevin idmançılarımızın çıxışlarını birbaşa zalda izləməsi onlara verilən ən böyük mənəvi dəstək idi. Tribunalarda yarışları izləyən tamaşaçılar böyük coşqu və sevinclə uğurlarımızı alqışlayıb, qürur hissi yaşadılar.

Ölkəmiz artıq dünyanın ən mötəbər yarışlarından olan «Formula-1» Azərbaycan Qran-prisinə də evsahibliyi edir. Bu il aprelin 27-29-da Bakı planetin bir nömrəli avtomobil yarışını sayca 3-cü dəfə qəbul etdi. Maraqlı və gərgin keçən yarışın yekununda «Mercedes» komandasının üzvü Luis Hamilton 1 saat 43 dəqiqə 44,291 saniyəlik nəticə ilə Azərbaycan Qran-prisinin qalibi oldu. İkinci yeri «Ferrari» komandasının sürücüsü Kimi Raikkonen, üçüncü yeri isə «Force India» komandasının pilotu Serxio Peres tutdu.

**«Azərbaycan» qəzeti**

Dövlət vergi orqanlarına işə qəbulla bağlı müsabiqə başa çatıb
səh. 2

Regionlarda vergi daxilolmaları artır
səh. 2

Kiçik və orta sahibkarlığın iqtisadiyyatdakı rolu yüksəlir
səh. 3

Nəzarət-kassa aparatları
səh. 4

# Dövlət vergi orqanlarına işə qəbulla bağlı müsabiqə başa çatıb

Sayca 14-cü olan bu müsabiqədə iştirak etmək üçün 1734 nəfər müraciət etmişdi. Onlardan 214 nəfərin ərizəsi yaş hədləri, ixtisasları uyğun olmadığına, xaricdə təhsil almış namizədlərin ali təhsil haqqında sənədlərinin müvafiq qaydada təsdiqlənmədiyinə və qanunvericiliyə uyğun olaraq digər səbəblərə görə qəbul edilməyib. Müraciəti qəbul olunan 1520 nəfər 26 may 2018-ci il tarixdə müsabiqənin test imtahanı mərhələsində iştirak edib və onlardan 139 nəfəri imtahandan uğurla keçərək 2-ci mərhələdə iştirak hüququ əldə edib.

Müsabiqənin 2-ci mərhələsində namizədlərlə müsahibə keçirilib. Müsahibə hər bir namizədlə fərdi qaydada aparılıb və onların ümumi dünyagörüşü, şəxsi keyfiyyətləri, vergi orqanlarında xidmətə yararlı və layiqli olub-olmaması yoxlanılıb. Müsahibə mərhələsindən 88 nəfər müvəffəqiyyətlə keçib.

Bundan əlavə, Vergilər Nazirliyi və Təhsil Nazirliyi arasında imzalanmış Əməkdaşlıq Memorandumuna və «Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə»yə görə «Sürətli işə qəbul» proqramı çərçivəsində SABAH qruplarında və müvafiq Dövlət Proqramı çərçivəsində xaricdə müvafiq ixtisaslar üzrə təhsil almış vətəndaşlar dövlət vergi orqanlarına işə qəbulla bağlı test imtahanı mərhələsindən azad olunaraq birbaşa müsahibə mərhələsində iştirak ediblər.

Test imtahanından azad olunmaqla müsahibə mərhələsində iştirak etmiş 106 namizəddən 44 nəfər, ümumilikdə isə 132 nəfər müsahibə mərhələsində müvəffəqiyyət qazanaraq kadr ehtiyatına daxil edilib.

# Regionlarda vergi daxilolmaları artır

2018-ci ilin ilk yarısında ölkəmizdə ğmumilikdə 67 min, o cümlədən  58 min daimi iş yeri yaradılıbvə onların təxminən  70%-i regionların payına düşüb ki, bu da bölgələrdə işgüzar mühitin göstəricisi olmaqla yanaşı, vergi daxilolmalarının artımına da öz mühüm təsirini göstərib. İlin ilk altı ayında ərazi vergi orqanları tərəfindən dövlət büdcəsinə 320,9 milyon manat vəsait daxil olub. Bu, 2017-ci ilin mğvafiq dövrü  ilə mğqayisədə 13,6% artıq deməkdir.

## Bölgələrdə vergi ödəyən obyektlərin sayı artıb

Regionlarda vergi daxilolmalarının strukturuna diqqət yetirdikdə özəl sahibkarlıq subyektlərinin xüsusi üstünlüyünü görmək mümkündür. Azad biznesə dövlət dəstəyi tədbirlərinin artırılması, vergi güzəştlərinin tətbiqi, vergi inzibatçılığının sadələşdirilməsi və vergi yükünün optimallaşdırılması özəl sektorun payının həm iqtisadi layihələrdə, həm də dövlət büdcəsinə ödənilən vergilərin həcminin artmasında özünü göstərməkdədir. Birinci yarımillikdə dövlət büdcəsinə ödənilən vergilərin 242,1 milyon manatı və ya 75,4 %-i qeyri-dövlət sektoruna aiddir. Dövlət sektorunun payı isə 24,6% (78,8 milyon manat) təşkil edib.

Vergi sistemində aparılan islahatlar ölkəmizdə sahibkarların gəlirlərinin və sayının artmasına, yeni istehsal, ticarət və xidmət sahələrinin yaradılmasına da təkan verir. İlin birinci yarısında regionlarda 6.185 obyekt (təsərrüfat subyekti) qeydiyyata alınıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,5% artım deməkdir. Ərazi vergi orqanlarında yeni qeydiyyata alınmış və fəaliyyəti bərpa edilmiş təsərrüfat subyektlərinin sayının cəmi fəaliyyətini dayandırmış və ləğv olunmuş obyektlərin sayının cəmindən 5.347 say çox olub.

2017-ci ilin müvafiq dövrü ilə müqyisədə regionlardan daxil olan vergi növlərinin, demək olar ki, bütün tədiyyələri üzrə əhəmiyyətli dərəcədə artım qeydə alınıb. Ümumiyyətlə, vergi daxilolmaları 39,1 milyon manat və ya 13,9%, o cümlədən əlavə dəyər vergisi (ƏDV) üzrə daxilolmalar 9,4 milyon manat və ya 10,9 faiz, sadələşdirilmiş vergi üzrə 8,5 milyon manat və ya 25,9 f% artıb. Yanvar-iyun aylarında regionlarda istehsal, ticarət, tikinti-infrastruktur, xidmət sahələrində aktivlik müşahidə edilir. Ticarət üzrə daxilolmaların artımı 19,7%, xidmət üzrə 23,7%, tikinti üzrə isə 16,4% təşkil edir.

## Qeyri-neft vergi daxilolmaları

2018-ci ilin birinci yarısında ərazi vergi orqanlarının əhatə dairəsinə daxil olan bütün şəhər və rayonlar, o cümlədən öz xərclərini mərkəzləşdirilmiş büdcədən dotasiya almadan həyata keçirən 32 şəhər və rayon üzrə büdcə proqnozlarının icrası tam təmin edilib. İqtisadçı Ramin Osmanlı hesab edir ki, regionlarda sahibkarlıq subyektlərinin sayının artmasına son zamanlarda biznes mühitinin və qeydiyyat sisteminin sadələşdirilməsi, sahibkarlıq fəaliyyəti ilə bağlı inzibatçılığın təkmilləşdirilməsi, vergi yükünün optimallaşdırılması, bir sıra sahələrə vergi güzəştləri sayəsində vergi yükünün aşağı salınması və digər amillər regionlarda biznesin səmərəliliyinin artmasına, yeni sahibkarlıq fəaliyyəti növlərinin yaranmasına səbəb olub. İlin ilk 6 ayı ərzində qeyri-neft sektorunu əhatə edən 200-dən artıq yeni müəssisənin yaradılması bu sahədə istehsalın artmasına və daxil olan vergilərin həcminin yüksəlməsinə səbəb olub.

Milli iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsində başlıca hədəflərdən biri qeyri-neft sektorunun inkişaf etdirilməsi, bu sahədən dövlət büdcəsinə daxil olan vergilərin həcminin artırılmasıdır. Vergi Məcəlləsinə edilmiş dəyişikliklərin və vergi siyasətinin əsas hədəflərindən biri sahibkarların fəaliyyətinin genişləndirilməsi, yeni istehsal, xidmət sahələrinin yaradılması və nəticədə onların gəlirlərinin artmasından ibarətdir. Vergi yükünün azaldılması, tətbiq olunan vergi güzəştləri və vergidən azadolmalar və digər dəstək tədbirləri də qeyri-neft sektorunda çalışan sahibkarları təşviq etmək məqsədi daşıyır. Bu məqsədlərə çatmaq üçün iqtisadi sistemin rəqabət qabiliyyətinin artırılması vasitəsilə vergi siyasətinin daha da təkmilləşdirilməsi, vergi dərəcələrinin optimallaşdırılması istiqamətində tədbirlər davam etdiriləcək.

**2018-ci ilin 6 ayı üzrə regionlardan vergi daxilolmalarının statistikası (yanvar-iyun 2018)**
*(min manatla)*




**Elbrus CƏFƏRLİ**

# Fərdi sahibkarlıq fəaliyyətinə başlamaq istəyənlərə məsləhət

Ölkədə sahibkarların işgüzar aktivliyinin artırılması, onlara zəruri nəzəri biliklərin verilməsi, vərdişlərin və bacarıqların aşılanması istiqamətində mühüm addımlar atılır. İndiyədək sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərlə, habelə sahibkarlıq fəaliyyətinə yenicə başlamaq istəyənlərlə vergiləri və sosial sığorta ayırmalarını hesablamaq və ödəmək, vergi və mühasibat uçotunu aparmaq kimi məsələlərlə bağlı çoxlu maarifləndirici görüşlər, seminar və treninqlər təşkil edilib. Vergilər Nazirliyinin «195-1» Çağrı Mərkəzi vasitəsilə vergi ödəyicilərinə məsləhət xidmətləri göstərilir. Bununla belə, sahibkarlıq fəaliyyəti subyektlərinin qeydiyyatı proseduru ilə bağlı suallar aktuallığını itirmir.

## VÖEN-in açılması

Fiziki şəxs vergi ödəyicisi kimi dövlət qeydiyyatına alındıqdan sonra sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi zamanı əldə etdiyi gəlirdən vergiləri hesablamalı, bəyan etməli və dövlət büdcəsinə ödəməlidir. Fiziki şəxs fərdi sahibkar kimi, yəni hüquqi şəxs yaratmadan gəlir əldə etmək məqsədilə müstəqil qaydada, xüsusi mülkiyyətinə əsaslanaraq, risk və məsuliyyəti öz üzərinə götürməklə fəaliyyət göstərə bilər.

Bəs ilk dəfə fərdi sahibkar kimi fəaliyyətə başlamaq istəyənlər vergi orqanlarında qeydiyyatdan keçmək üçün nə etməlidir? Fərdi sahibkar kimi fəaliyyətin rəsmiləşdirilməsi sahibkarlıq fəaliyyətinə başlayan şəxsin (vergi qanunvericiliyində belə şəxslər «fiziki şəxs» adlandırılır) rəsmi qeydiyyatı öz adına VÖEN (vergi ödəyicisinin eyniləşdirmə nömrəsi) açdırmaqdan başlayır. Fiziki şəxs vergi orqanına gəlmədən elektron qaydada vergi uçotuna alına bilər. Elektron qeydiyyat gücləndirilmiş elektron imza (o cümlədən «ASAN imza») əsasında İnternet Vergi İdarəsi portalı (www.e-taxes.gov.az) vasitəsilə aparılır. «ASAN imza» sertifikatlarının verilməsi «ASAN xidmət» mərkəzində və vergi ödəyicilərinə xidmət mərkəzlərində həyata keçirilir. «ASAN imza» üçün müraciət edən şəxs tərəfindən ilk növbədə hər hansı mobil operatordan («Azercell», «Bakcell», «Nar Mobile») «ASAN imza» SİM kartı əldə edilməli, daha sonra tələb olunan digər sənədlərlə Asan Sertifikat Xidmətləri Mərkəzinə müraciət edilməlidir. Bu sənədlərə sertifikat xidmətlərinin göstərilməsi haqqında müqavilənin bağlanılması üçün ərizə, «e-təmsilçi» qismində tanınma barədə ərizə, «ASAN imza» SİM kartı üzrə sertifikat xidmətlərinin göstərilməsi haqqında müqavilə, Rəqəmsal ID kartı üzrə sertifikat xidmətlərinin göstərilməsi haqqında müqavilə və digərləri daxildir. Bu sənədlərin hər biri «ASAN xidmət» mərkəzlərində elektron qaydada hazırlanır. Təqdim edilmiş sənədlərin düzgünlüyü yoxlanıldıqdan sonra müraciət etmiş şəxslə «ASAN xidmət» Mərkəzi arasında yazılı müqavilə bağlanılır və müvafiq sertifikat çap olunaraq kağız daşıyıcıda ona təqdim edilir.

İlk dəfə sahibkarlıq fəaliyyətinə başlayan şəxs yerli vergi orqanına müraciət etməklə də qeydiyyata alına və VÖEN şəhadətnaməsi əldə edə bilər. Bunun üçün həmin şəxs özü və ya səlahiyyətli nümayəndəsi vasitəsilə (notarial qaydada təsdiq edilmiş etibarnamə ilə) «Fiziki şəxsin vergi uçotu haqqında ərizə» və fiziki şəxsin şəxsiyyət vəsiqəsinin surəti ilə yaşadığı yer (şəxsiyyət vəsiqəsində göstərilən) üzrə vergi orqanına və ya onun əhatə dairəsinə aid müvafiq vergi ödəyicilərinə xidmət mərkəzinə müraciət etməlidir. Tələb olunan sənədlər vergi orqanına daxil olduğu gündən sonrakı 1 gün müddətində fiziki şəxs ödənişsiz olaraq vergi uçotuna alınır.

Beləliklə, cəmi 6 addımla sahibkarlıq fəaliyyətini rəsmiləşdirmək və ən qısa müddətdə VÖEN şəhadətnaməsini almaq mümkündür:

*VÖEN almaq üçün ərizənin doldurulması*
↓
*Ərizənin vergi orqanına təqdim olunması*
↓
*Məlumatların ilkin yoxlanılması*
↓
*Ərizənin məlumat bazasına işlənilməsi*
↓
*Fiziki şəxsin dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin hazırlanması*
↓
*Şəhadətnamənin vergi orqanından alınması.*

Fiziki şəxs vergi orqanında uçota alındıqdan və VÖEN şəhadətnaməsini əldə etdikdən sonra Vergilər Nazirliyinin göndərdiyi məlumatlar əsasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunda (DSMF) qeydiyyata alınmalı və sadələşdirilmiş vergi ödəyicisi kimi fəaliyyət göstərdiyi sahədən əldə etdiyi gəlirdən dövlətə vergi və sosial sığorta ödəməlidir. Vergilərin həcmi aylıq gəlirin (əməkhaqqı, xidməthaqqı və s.) 4 faizini (regionlarda 2 faizini), DSMF-yə ödənilən sosial sığorta ödənişlərinin məbləği isə sahibkarın hansı regionda fəaliyyət göstərməsindən asılı olmayaraq, 23 manat 20 qəpik təşkil edir.

**Elxan SALAHOV**

# Vergi orqanları gənclərlə həmrəylik nümayiş etdirir

Vergilər Nazirliyində Gənclər Təşkilatları Milli Şurasının nümayəndələri ilə keçirilmiş görüş «Azərbaycanda gənclər təşkilatlarının inkişafına dəstək və onların fəaliyyətinin artırılması istiqamətində imkanlar» mövzusuna həsr olunub. Görüş zamanı nazirliyin fəaliyyət və strukturları haqqında ümumi tanışlıq, elektron xidmətlər, vergilərin tam həcmdə ödənilməsi və hesabatların düzgün tərtibatı, vergi yükünün azaldılması və vergidən azadolmalar, kiçik və orta biznesin inkişafında vergilərin rolu ilə bağlı məlumatlandırma xarakterli təqdimatlar edilib.

Nazirlik əməkdaşları əsas diqqəti gənclərin biznes qurması və bu zaman üzləşdiyi çətinliklərə, dövlət tərəfindən onlara yaradılan şərait və edilən güzəştlər  üzərində cəmləşdirmişlər. Görüş zamanı bazar iqtisadiyyatına keçid şəraitində məqsədyönlü iqtisadi siyasətin həyata keçirilməsi, ölkənin iqtsadi və sosial inkişafının əsasını təşkil edən dövlət büdcəsi gəlirlərinin formalaşmasında vergi orqanlarının rolu barədə də danışılıb.

Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının sədri Məryəm Məcidova: «Gənclər Təşkilatları Milli Şurasının məlumat turlarının keçirilməsində əsas məqsədlərdən biri də gəncləri suallarını birbaşa ünvanlaya biləcəkləri qurumlarla görüşdürməkdir. Əminliklə deyə bilərik ki, bu görüş gənclərə gözlənilən töhfəsini verə bildi. Məlumat turu proqramı çərçivəsində Vergilər Nazirliyi ilə yenidən görüşlərimiz olacaq».

«Gənclərin Həmrəyliyinə Dəstək» İctimai Birliyinin sədri Cəmilə Abdullayeva: «Vergilər Nazirliyi hər zaman öz biznesini qurmağa çalışan gənclərə xüsusi diqqətlə yanaşır və onlara bütün mərhələlərdə hərtərəfli kömək göstərir».

«Avropanın Gənc Azərbaycanlı Dostları Assosiasiyası» İctimai Birliyinin sədri Qasım Xasməmmədli: «Bir gənc olaraq cəmiyyətimiz üçün faydalı işlər görmək üçün əlimdən gələni edirəm. Əlbəttə ki, zaman-zaman müxtəlif problemlərlə rastlaşırıq və bu, normal haldır. Lakin əsas məsələ odur ki, qarşıya çıxan problemlərin aradan qaldırılması üçün təşəbbüslər göstərilsin, qanunvericilikdə, vergi inzibatçılığında, eləcə də insani münasibətlərdə aydınlıq və səmimiyyət olsun. Bu baxımdan, iştirakçısı olduğum bu görüşdən əldə etdiyim məlumatların gələcək fəaliyyətimdə mənə kömək edəcəyinə əminəm!»

**Fəxriyyə İKRAMQIZI**

# Vergi güzəşti və azadolmalarına yeni yanaşma

Hazırda vergi sistemində aparılan islahatların əsas prioritetlərindən biri güzəşt və azadolmalarla bağlı siyasətə yenidən baxılması, bu sahədə ünvanlılığın təmin edilməsidir. Aparılan monitorinqlər zamanı meydana çıxan bir sıra məqamlar güzəştlərin səmərəliliyinin təmin edilməsini daha da aktuallaşdırıb. Xüsusilə bəzi iqtisadi sahələrdə nəzərdə tutulan hədəflərə xidmət etmədiyindən, güzəştlərə yeni baxış zəruri məsələyə çevrilib.

Təhlillər və araşdırmalar göstərir ki, güzəştlər heç də həmişə iqtisadi inkişafı, ictimai və dövlət maraqlarını gözlənilən səviyyədə təmin etmir. Bəzən verilən güzəştlərdən sui-istifadə hallarına rast gəlinir. Vergi güzəştlərinin «itirilməsi» onun ünvanlı olmamasından, vergitutmanın ədalətlilik prinsipinin pozulmasından və verilmiş güzəştdən təyinatı üzrə istifadə edilməməsindən yaranır.

## Güzəşt hüququ olan sosial kateqoriya adından sui-istifadə edilir

Bir sıra hallarda güzəştlər istehsalçı və ya ixracatçı şəxslərin maddi vəziyyətinin yaxşılaşmasına gətirib çıxarsa da ölkənin əsas istehlakçıları, aztəminatlı təbəqələr və dövlət bundan fayda görmür. Məsələn, kənd təsərrüfatı məhsullarının istehsalçıları vergidən azad olunduğundan, bəzi hallarda emalla məşğul olan sahibkarlar da istehsal təyinatı adı altında vergidən yayınmağa çalışırlar. 2017-ci il yanvarın 1-dən qüvvəyə minmiş Vergi Məcəlləsinə edilmiş əlavə dəyişikliklərlə həmin məsələ ilə bağlı konkretlik təmin olunsa da, bəzi emalçılar yenə də sui-istifadəyə cəhd edirlər.

Bundan başqa, investisiya məqsədləri üçün tətbiq olunan vergi güzəştləri də təyinatı üzrə istifadə edilmir, investor həmin vəsaiti təkrar istehsal və iqtisadi layihələr üçün deyil, digər məqsədlərə yönəldir. Müşahidələr göstərir ki, bəzi hallarda güzəşt nəticəsində əldə edilən dövriyyə vəsaitinin təxminən 70%-i mənimsənilir və yalnız 30%-i təyinatı üzrə istifadə olunur.

Güzəştlərdən sui-istifadə hallarına sosial məqsədli vergilərdə də rast gəlinir. Vergi güzəştləri - məqsədlərinə görə həm də sosial xarakterlidir: vergi ödəyicilərinin maddi vəziyyətinin yaxşılaşdırılmasına xidmət edir. Son illərdə tələbələrin, əlillərin və əhalinin digər aztəminatlı təbəqələrinin, məcburi köçkün və qaçqınların, əhalinin güzəşt hüququ olan digər kateqoriyalarının maddi vəziyyətinin yaxşılaşdırılması məqsədilə onların aylıq gəlirlərinin vergidən azad olunan məbləğinin 2 dəfəyədək artırılması, 2016-cı il yanvarın 1-dən fiziki şəxslərin aylıq əməkhaqqından tutulan gəlir vergisi üzrə güzəştləri də qeyd etmək mümkündür. Ticarət, xidmət, ictimai iaşə və digər sahələrdə həmin kateqoriyadan olan şəxslərin adları rəsmiləşdirilir ki, bu da həm hüquqi, həm iqtisadi, həm də mənəvi cəhətdən yolverilməzdir. 2017-ci ildə vergi güzəşti və azadolmalarının strukturuna diqqət yetirsək, birinci yeri gəlir vergisinin tutduğunu görmək olar (ümumi azadolmaların 35%-i). Yaxud vergi güzəşti və azadolmalarından istifadə edənlərin 92,2%-ni fiziki şəxslərin təşkil etməsi qeyd olunan sahələrdə bu rəqəmin kifayət qədər böyüklüyündən xəbər verir və şübhələrə yol açır.

Vergilər Nazirliyinin Vergi siyasəti departamentinin güzəşt və azadolmaların həcmini müəyyən etmək məqsədilə apardığı monitorinqin nəticələri göstərir ki, itirilmiş vergi məbləğinin həcmi son 5 ildə 13 dəfədən çox artıb. Bu fakt bir daha güzəştlərdən bəzi hallarda məqsədsiz və ünvansız istifadə olunduğunu təsdiqləyir.

## Güzəştlər ələbaxımlılıq və tənbəllik yaratmamalıdır

«İqtisadi resursların öyrənilməsi» İctimai Birliyinin rəhbəri Ruslan Atakişiyev hesab edir ki, vergi güzəştləri istehsal və xidmət sahələrinin genişləndirilməsi, yeni sahibkarlıq subyektləri  və iş yerlərinin yaradılması baxımından əhəmiyyətlidir. Dövlət bu və ya digər sahənin dirçəldilməsinə kömək etmək, onun regional və beynəlxalq səviyyədə rəqabətədavamlı olmasını təmin etmək məqsədilə öz büdcə gəlirlərindən imtina edir. Bir çox ölkələrin təcrübəsindən də göründüyü kimi, vergi güzəşti və azadolmaları müəyyən dövr üçün həmin sahənin «ayağa qaldırılmasına» və inkişaf etdirilməsinə kömək məqsədilə verilir. Yəni bu güzəştlər əbədi deyil və müəssisənin normal gəlir əldə etmək imkanları yarandıqdan sonra dayandırılır. Ona görə də sahibkarlar güzəşt tətbiq olunduğu dövrdə yaradılmış bu fürsətdən sərfəli istifadə etməli, istehsal və xidmət sahələrini genişləndirməli, vergi güzəşti sayəsində əldə olunan vəsaitləri təkrar investisiya mənbəyi kimi istifadə etməlidirlər.

Təəssüf ki, bəzi üzdəniraq sahibkarlar güzəştləri həyat tərzinə çevirir və tənbəlləşir, vergi ödəmək vərdişindən uzaqlaşırlar. Vergi azadolmaları dövrü başa çatdıqdan sonra onlar vergi ödəməyi sanki ağır yük kimi qəbul edirlər, vergi intizamına əməl etməkdə çətinlik çəkirlər.

Dünya təcrübəsindən də göründüyü kimi, sahibkarlığı stimullaşdırmağın ən yaxşı vasitəsi vergi inzibatçılığının təkmilləşdirilməsi, optimal vergi mexanizminin yaradılmasıdır. Bu siyasət özünü daha yaxşı doğruldur və bütün sahibkarların fəaliyyəti üçün əlverişli və bərabər imkanlar yaradır.

## Əsas hədəf vergi dərəcələrinin optimallaşdırılmasıdır

Vergi orqanları ilə bərabər digər iqtisadi strukturlar, maliyyə orqanları da ölkədə həyata keçirilən büdcə-fiskal siyasətin əsas hədəflərindən biri kimi iqtisadi səmərəlilik baxımından vergi-gömrük rejiminin təkmilləşdirilməsini məqsədəuyğun hesab edir. Maliyyə və İqtisadiyyat nazirliklərinin ölkəmizin 2018-2020-ci illərə dair hazırladıqları iqtisadi inkişaf proqnozlarında bəzi sahələrdə vergi və gömrük güzəştlərinə yenidən baxılması, güzəştlərin məhdudlaşdırılması, bir sıra sahələrdə vergi dərəcələrinin optimallaşdırılması, sadələşdirilməsi ilə əlaqədar istiqamətlər öz əksini tapıb. Hökumət müasir mərhələdə vergi güzəştlərinin əsas etibarilə kiçik və orta sahibkarlığın həvəsləndirilməsinə və fəaliyyətinin səmərəliliyinin artırılmasına xidmət etməli olduğunu vacib sayır. Proqnozlara görə, həmin hədəflərin gerçəkləşdirilməsi sahibkarlığın inkişafına əlavə təkan verəcək.

**Elbrus CƏFƏRLİ**

# Kiçik və orta sahibkarlığın iqtisadiyyatdakı rolu yüksəlir



**Azərbaycan Respublikası Prezidentinin 26 iyun 2018-ci il tarixli fərmanı ilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Nizamnaməsi təsdiq edilib. Bununla da agentlik rəsmən öz səlahiyyətləri çərçivəsində vəzifələrinin icrasına başlamışdır. Müsahibimiz Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədovdur.**

**- Orxan müəllim, rəhbərlik etdiyiniz qurum hansı zərurətdən yarandı?**

- İqtisadiyyatımızın əsas sektorları üzrə strateji yol xəritələri vətəndaşlarımızın rifahını yüksəltməklə yanaşı, investisiyaların cəlb edilməsinə, eyni zamanda rəqabət mühitinin formalaşmasına, xarici bazarlara çıxış və insan kapitalının inkişafında aparıcı istiqamətləri müəyyən edir. Strateji Yol Xəritəsi qısa (2020-ci ilədək), orta (2025-ci ilədək) və uzunmüddətli (2025-ci ildən sonra) dövrləri əhatə edir. Dövlət başçısının fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin yaradılmasının zəruriliyi öz əksini tapıb. Agentliyin yaradılmasında əsas məqsəd kiçik və orta biznesin (KOB) iqtisadi fəallığını artırmaq, özəl təşəbbüslərə dəstək olmaq, sağlam rəqabət mühiti formalaşdırmaqdır.

Ölkəmizdə mikro, kiçik və orta biznes subyektlərinin ölkə iqtisadiyyatındakı rolunun yüksəldilməsi sahəsində böyük potensial mövcuddur. Nəzərə almaq lazımdır ki, davamlı inkişaf prioritetləri bu sahə qarşısında yeni tələblər irəli sürür. Kiçik və Orta Biznesin İnkişafı Agentliyi idarəetmənin məhz bu tələblər əsasında təşkili məqsədilə yaradılmışdır. Agentliyin fəaliyyəti inkişaf çağırışlarına uyğun mövcud mexanizmlərin təkmilləşdirilməsinə, yenilərinin yaradılmasına yönəldiləcəkdir.

KOB-ların miqyasca kiçik və bazardakı dəyişikliklərə həssas olması onların inkişafına daha çox dövlət dəstəyinin göstərilməsini zəruri edir. Bu gün KOB subyektləri müəyyən məlumatların, eləcə də bir sıra biznes xidmətlərinin əldə edilməsində çətinliklərlə üzləşirlər. Araşdırmalar göstərir ki, Azərbaycanda KOB subyektləri biznes məsləhət xidmətlərindən çox az istifadə edirlər ki, bu da onların rəqabət qabiliyyətini və dayanıqlığını zəiflədir. Bu subyektlərin bəzilərinin qanunvericiliyin tələblərindən, biznes risklərindən, mövcud sektordakı vəziyyətdən xəbərsiz şəkildə fəaliyyətə başlaması bir sıra hallarda onların uğursuzluğa düçar olması ilə nəticələnir. Agentliyin nəzdində fəaliyyət göstərəcək KOB evləri bu cür məsələlərdə sahibkarlara yardımçı olacaq.

Agentliyin yaradılmasını zəruri edən digər bir səbəb KOB-lara dövlət xidmətlərindən daha rahat, maneəsiz istifadə imkanının yaradılması, mövcud dəstək mexanizmlərindən istifadənin səmərəliliyinin yüksəldilməsi ilə bağlıdır. Azərbaycanda hazırda ayrı-ayrı dövlət orqanları öz səlahiyyətləri çərçivəsində KOB-lara müxtəlif xidmətlər üzrə dəstək göstərirlər.

**- Agentlik öz missiyasını yerinə yetirərkən hansı əsas prinsipləri rəhbər tutur?**

- Agentlik biznes mühitinin əlverişliliyinin artırılması, tənzimləmə sisteminin səmərəliliyinin yüksəldilməsi, çoxsaylı dəstək tədbirlərinin ünvanlılığının və onlara sahibkarların maneəsiz və rahat çıxışının təmin edilməsi yolu ilə KOB sektorunun davamlı inkişafı və onun ölkə iqtisadiyyatındakı rolunun artırılması kimi hədəflərini reallaşdırarkən operativlik, şəffaflıq və məsuliyyət prinsiplərini rəhbər tutur. Qurum dövlət-özəl sektor tərəfdaşlığını reallaşdırdığına görə, öz missiyasını bir tərəfdən dövlət qurumları, digər tərəfdən isə KOB-larla sıx əməkdaşlıq şəraitində həyata keçirir. Əlbəttə, biz bu sahədə vətəndaş cəmiyyəti institutlarının, qeyri-hökumət təşkilatlarının və fondların, eləcə də Azərbaycan Respublikasının dövlət maraqları çərçivəsində fəaliyyət göstərən beynəlxalq təşkilatların da iştirakını unutmuruq. Hesab edirik ki, şəffaflığın artırılması istiqamətində vətəndaş cəmiyyəti, dövlət və özəl sektor, eləcə də beynəlxalq təşkilatlar qarşılıqlı təmasda işləməli və qarşıya qoyulan məqsədlərə çatmaq üçün səylərini səfərbər etməlidirlər.

**- Rəhbərlik etdiyiniz qurum tərəfindən mikro, kiçik və orta sahibkarlıq subyektlərinə hansı xidmətlər göstəriləcəkdir?**

- Agentlik dövlət və özəl qurumların sahibkarlara vahid məkanda daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaları tətbiq etməklə zəruri biznesin yaradılması və inkişafının bütün mərhələlərində lazım olan xidmətləri, o cümlədən zəruri səyyar xidmətlər göstərəcəkdir. Bu xidmətlər Agentliyin nəzdində yaradılacaq «KOB evləri», «KOB dostları» şəbəkəsi və «KOB könüllüləri» vasitəsilə reallaşdırılacaqdır. Bundan əlavə, sahibkarlara elektron platformadakı xidmətlərdən istifadə imkanı yaradılacaqdır. Planımıza əsasən, yeni «E-KOB evi» portalında «Sahibkarın elektron kabineti» bölməsi və «Elektron sahibkar» sistemi «KOB e-şəbəkəsi»nə daxil edilməklə, elektron xidmətlər mərkəzləşdirilmiş dövlət informasiya sistemləri ilə inteqrasiya olunacaq. Bununla yanaşı, biz göstərilən hər bir xidməti təhlil edib qiymətləndirəcək, onların elektron formada həyata keçirilməsi üçün müvafiq proqram təminatının, informasiya sistemlərinin, məlumat bazalarının və xidmətlər reyestrinin yaradılması və təkmilləşdirilməsi ilə bağlı tədbirlər görəcəyik. Bu fəaliyyətlərin məntiqi nəticəsi olaraq, KOB-lar üçün «bir pəncərə» sistemi formalaşacaqdır. Sahibkar olmaq istəyən və ya sahibkar kimi fəaliyyət göstərən şəxslər bunun sayəsində lazım olan xidmətləri və zəruri dəstəyi vahid məkandan ala biləcəklər. Təbii ki, bütün bu planlara bizimlə bərabər çalışacaq dövlət orqanları ilə birgə nail olmağı düşünürük.

> «Şəffaflığın artırılması istiqamətində vətəndaş cəmiyyəti, dövlət və özəl sektor, eləcə də beynəlxalq təşkilatlar qarşılıqlı təmasda işləməli və qarşıya qoyulan məqsədlərə çatmaq üçün səylərini səfərbər etməlidirlər

**- Ölkədə mikro, kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsi, həmin sahibkarlıq subyektlərinin fəaliyyətinin tənzimlənməsi, maraqlarının qorunması istiqamətində hansı tədbirlərin həyata keçirilməsi planlaşdırılır?**

- Agentlik KOB-ların tənzimlənməsində iştirak edərkən beynəlxalq təcrübədə geniş tətbiq olunan və müasir tələblərə cavab verən çevik idarəetmə sisteminin yaradılmasını, biznes mühitində əlverişliliyin artırılmasını əsas götürəcəkdir. Yaradılacaq əməkdaşlıq platformalarında sahibkarların maraqlarının daha etibarlı müdafiəsi mexanizmləri tətbiq ediləcəkdir.

Yaxın zamanlarda Agentlik yanında sahibkarların və vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin iştirakı ilə İctimai Şura yaratmağı planlaşdırırıq. Şura cəmiyyət-sahibkar-dövlət orqanları münasibətlərində daha səmərəli tədbirlərin həyata keçirilməsinə dəstək olacaq. Bundan əlavə, KOB-lara institusional dəstək mexanizmləri təkmilləşdiriləcək, dövlət təşkilatlarının və özəl qurumların fəaliyyəti əlaqələndiriləcək, regionlarda sahibkarlığın inkişafına əlverişli şərait yaradılacaq. Bu sahəyə yerli və xarici investisiyaların cəlb edilməsi də planlaşdırılır. Milli KOB, milli marka və brendlərin formalaşdırılması istiqamətində böyük planlarımız var. Artıq KOB klasterlərin yaradılması və inkişafı üzrə vahid dövlət siyasətinin formalaşdırılması sahəsində ilkin məsləhətləşmələrə və quruculuq işlərinə başlamışıq.

**- Səlahiyyətli bir qurum kimi, agentlik dövlətə və özəl sektora aid müəssisələrin fəaliyyətini necə əlaqələndirir?**

- Agentlik KOB-ların inkişafı siyasətinin əlaqələndirici qurumu kimi müəyyən edilmişdir. Agentliyin yanında aidiyyəti dövlət qurumlarının nümayəndələrindən ibarət Koordinasiya Qrupu yaradılacaq. Bu məqsədlə artıq İqtisadiyyat Nazirliyinin yaxından dəstəyi ilə müəyyən addımlar atılıb. Qrupun rəsmi fəaliyyəti ilə bağlı müvafiq hüquqi prosedurlar həyata keçirilir və bu fəaliyyət davam etdiriləcəkdir. Əlaqələndirmə zəncirinin iştirakçıları olan tərəfdaşlarımızın da vahid mövqeyi bundan ibarətdir ki, aparılan islahatların sürətləndirilməsi məqsədilə daha əlverişli biznes mühiti üçün maneə yaradan bütün əngəllər aradan qaldırılmalıdır. Bu gün müasir dünyanın fərqli trendləri yaranır və biz də buna uyğun olaraq islahatlarımızı daha əlverişli investisiya mühiti yaratmaq baxımından səmərəli vəziyyətə gətirməliyik. İndi dünya təcrübəsində əlverişli investisiya mühiti üçün qanunvericilik islahatları ön sırada dayanır. Bunu ona görə qeyd edirəm ki, biz əlaqələndirməni həyata keçirərkən öz tərəfdaşlarımız olan dövlət və özəl sektor nümayəndələri ilə bərabər biznes mühitinin inkişafına əngəl olan maneələrin aradan qaldırılmasını qanunvericiliyin təkmilləşdirilməsi yolu ilə həll etməyi düşünürük.

Biz müvafiq sahədə hazırlanan qanunvericilik aktlarının müzakirəsində sahibkarların yaxından iştirakını təmin etməklə, onların ölkədə həyata keçirilən iqtisadi islahatlar prosesində dövlət qurumları ilə birgə müzakirələrdə iştirakının tərəfdarıyıq və qarşılıqlı etimadın artırılması istiqamətində biznes təmsilçilərinin maraqlarını nəzərə almaq əzmindəyik.

*Müsahibəni hazırladı:*
**Fəxriyyə İKRAMQIZI**

# Asan yolla əldə edilən qazancın böyük zərəri

## Qaçaqmalçılıq ucbatından hər il milyonlarla vəsait büdcədən yayındırılır

Nazirlər Kabinetinin bu ilin birinci yarısının yekunlarına həsr olunmuş iclasında dövlətimizin başçısı deyib ki, Azərbaycanın vergi və gömrük orqanları dünyanın inkişaf etmiş ölkələrinin səviyyəsinə qalxmalıdır: «Yəni, sadə dillə desək, vəzifə bundan ibarətdir. Əlbəttə ki, kadr dəyişikliyi aparılmalıdır və aparılır. Əminəm ki, bu, öz bəhrəsini verəcək. Qabaqcıl ölkələrin təcrübəsi Azərbaycanda tətbiq edilməlidir. Bütün dövlət qurumları, eyni zamanda, sahibkarlar da bilməlidirlər ki, vergi və gömrük sistemlərində tam şəffaflıq təmin edilir, bərabər şərait yaradılıb, qeyri-sağlam rəqabətə son qoyulur. Sahibkarlar tam aydın bilməlidirlər ki, işləmə qaydaları nədən ibarətdir. O da çox sadədir: qanunlara riayət etmək, vergiləri tam ödəmək, qaçaqmalçılıqla məşğul olmamaq və ölkə iqtisadiyyatına ziyan vurmamaq. Əsas şərtlər bundan ibarətdir».

> «Son vaxtlar vergi və gömrük sistemlərində aparılan islahatlar öz bəhrəsini verir. Bu sahələr bir-birinə bağlı olan sahələrdir və əlbəttə ki, islahatlar hər iki sahədə paralel olaraq aparılmalıdır və aparılır. Əminəm ki, görülmüş işlər nəticəsində yaxın gələcəkdə biz daha da böyük nəticələri görəcəyik».
>
> İlham ƏLİYEV,
> Azərbaycan Respublikasının Prezidenti

Ölkə Prezidenti sahibkarları da bu işlərdə məsuliyyətlərini artırmağa çağırıb: «Hamı qanun qarşısında bərabər olmalıdır. Vergi və gömrük orqanlarının rəhbərliyi qarşısında mənim tapşırıqlarım bundan ibarətdir. Heç kimin heç bir güzəşti yoxdur, ola da bilməz. Hər bir sahibkar vergisini tam ödəməlidir və vergidən başqa heç bir başqa ödəniş olmamalıdır».

### Qaçaq yolla ölkəyə ən çox gətirilən məhsullar

Dövlət Gömrük Komitəsinin açıqladığı məlumatlara əsasən, qaçaqmalçılıq yolu ilə Azərbaycana gətirilən məhsullar arasında narkotik tərkibli maddələr, tütün məhsulları, spirtli içkilər və mobil telefonlar üstünlük təşkil edir. Narkotik vasitələr ölkəyə əsasən İran, tütün məhsulları, spirtli içkilər və mobil telefonlar isə Gürcüstan və Rusiya üzərindən gətirilir.

Bir neçə gün əvvəl «Sınıq körpü» gömrük postunda Gürcüstandan ölkəmizə gələn Azərbaycan vətəndaşının idarə etdiyi minik avtomobilinə baxış keçirilib. Sürücü özünün üzərində və idarə etdiyi nəqliyyat vasitəsində gömrük nəzarətindən gizlədilmiş hər hansı predmetin olmadığını bildirsə də, baxış zamanı avtomobilin sağ və sol qanadlarının içərisindən 40 ədəd «X-Box» və 2 ədəd «Samsung Galaxy J3» markalı mobil telefon və aksesuarlar aşkar edilib.

Bundan az sonra isə Özbəkistandan Bakı şəhərinə gətirilən yükə baxış keçirilərkən 20 ədəd kondisionerin gizli yolla Azərbaycana keçirilməsi cəhdinin qarşısı alınıb. Gömrükçülərin yükə baxışı zamanı bəyan edilən mallardan əlavə, bəyan olunmamış 20 ədəd «Shivaki Air Conditioner 18000 BTU/H» markalı kondisionerin hissələri aşkar edilərək götürülüb.

### Qanunsuz ticarətə qarşı birgə mübarizə aparılmalıdır

Gətirdiyimiz nümunələr qanunsuz ticarətə, o cümlədən qaçaq yolla ölkəyə məhsul gətirilməsinə cəhdetmə hallarına aid nümunələrdən yalnız bir neçəsidir. Görülən tədbirlərə baxmayaraq, qanunsuz malların bazara daxil edilməsi öz aktuallığını saxlayır. İqtisadçı ekspert, İqtisadi və Sosial İnkişaf Mərkəzinin rəhbəri Vüqar Bayramovun sözlərinə görə, ölkəyə qaçaqmalçılıq yolu ilə gətirilən, vergi və gömrük orqanlarından yayındırılan malların geniş satış dövriyyəsi iqtisadiyyatı vergilərdən əldə olunan mühüm gəlirlərdən məhrum edir. Onun sözlərinə görə, bu problem təkcə Azərbaycanda deyil, dünyanın bir çox ölkələrində həmişə aktual olub: «Bir çox ölkələrdə bu cür məhsulların satışından il ərzində külli miqdarda vəsait dövriyyədən kənarda qalır, nəticədə dövlət böyük həcmdə vergiləri itirir. Gömrük qeydiyyatından kənar malların milli bazara daxil olması ədalətsiz rəqabət şəraitinin formalaşdırılmasında və son nəticədə azad sahibkarlığın boğulmasında xüsusi rol oynayır. Odur ki, qaçaqmalçılıqla mübarizə tədbirləri daha effektiv şəkildə və davamlı olaraq aparılmalıdır».

Xatırladaq ki, bu ilin aprelində Vergilər Nazirliyi ilə Dövlət Gömrük Komitəsi arasında «Üçüncü şəxslər üçün mal idxal edən şəxslərin fəaliyyətinə nəzarət edilməsi haqqında» Razılaşma Protokolu imzalanıb. Məqsəd üçüncü şəxslər üçün mal idxal edənlərin qanunvericiliyə əməl etməsini, vergi öhdəliklərinin tam həcmdə yerinə yetirilməsini və sahibkarlıq subyektləri arasında rəqabət mühitinin qorunmasını təmin etməkdir. Sənəddə əsas diqqət irimiqyaslı konsepsiyaların, sosial-iqtisadi strategiyaların və proqramların qəbul edilməsinə, eləcə də mövcud islahatlar fonunda vergidən yayınma hallarının aradan qaldırılmasına, büdcə daxilolmalarının tam həcmdə və vaxtında yığılmasına yönəldilir. Bu məqsədlərə nail olmaq üçünsə iqtisadi münasibətlərin şəffaflaşdırılmasının, vergi ödəyiciləri tərəfindən vergi öhdəliklərinə düzgün əməl olunmasının və könüllü əməletmə səviyyəsinin artırılmasının əhəmiyyətli rolu var.

**E.SALAHOV**

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşə qəbul olunarkən işəgötürənlərdən əmək müqaviləsinin bağlanmasını tələb edin. Əmək müqaviləsi ilk növbədə sosial maraqlarınızın təmin olunmasına xidmət edir və rəsmiləşdirilməmiş əmək fəaliyyətinə razılaşmaqla Siz gələcəkdə dövlətin sosial təminatından və bir sıra üstünlüklərdən məhrum olursunuz.

| İşçinin hüquqları və üstünlükləri | Əmək müqaviləsi ilə fəaliyyət göstərdikdə | Əmək müqaviləsiz fəaliyyət göstərdikdə |
|---|---|---|
| 8 saatlıq iş hüququ | ✓ | ✗ |
| Əmək məzuniyyətindən istifadə hüququ | ✓ | ✗ |
| Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ | ✓ | ✗ |
| Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ | ✓ | ✗ |
| Gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı | ✓ | ✗ |
| İpoteka və digər kreditləri almaq imkanı | ✓ | ✗ |
| Məhkəmədə hüquqların müdafiəsi | ✓ | ✗ |

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və rəsmi əməkhaqqı ödəməyi tələb etməklə Siz gələcəyinizi indidən düşünmüş olursuz. Unutmayın ki, Sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlidir!

**Bununla bağlı hüquqlarınız pozularsa, vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya «195-1» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2015-ci ilin avqust və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2018-ci ilin avqust və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa,
**Vergilər Nazirliyinin «195-1» Çağrı Mərkəzinə,**
rəsmi internet saytının «Sual-cavab» bölməsinə
www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az
internet ünvanına müraciət edə bilərsiniz.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin
Vergi siyasəti departamentinin baş direktoru
vergi ödəyicilərinin suallarına cavab verir

# Elektron qaimə-faktura

***ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış şəxslər tərəfindən sahibkarlıq fəaliyyəti ilə əlaqədar təqdim edilmiş mallara (işlərə, xidmətlərə) görə elektron vergi hesab-fakturası ilə bərabər elektron qaimə-faktura da təqdim olunmalıdırmı?***

Vergi Məcəlləsinin (VM) 16.1.11-6-cı maddəsinə əsasən, vergi ödəyicisi tərəfindən sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş qaydada qaimə-faktura və ya elektron qaimə-faktura verilməlidir.

«Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» 16 dekabr 2016-cı il tarixli 454-VQD nömrəli Qanunun 2-ci maddəsinə uyğun olaraq, ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və VM-in 218.1.2-ci maddəsində göstərilən şəxslər tərəfindən sahibkarlıq fəaliyyəti ilə əlaqədar təqdim edilmiş (yola salınmış) mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə 2017-ci il 1 aprel tarixdən, bütün digər vergi ödəyiciləri tərəfindən 2018-ci il 1 yanvar tarixdən malların (işlərin, xidmətlərin) alıcısı olan hüquqi şəxslərə və fərdi sahibkarlara (malların, işlərin, xidmətlərin sifarişçisinə) elektron qaimə-faktura təqdim edilməlidir.

**Qeyd olunanlara əsasən:**

ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış şəxslər tərəfindən sahibkarlıq fəaliyyəti ilə əlaqədar təqdim edilmiş (yola salınmış) mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə malların (işlərin, xidmətlərin) alıcısı olan hüquqi şəxslərə və fərdi sahibkarlara (malların, işlərin, xidmətlərin sifarişçisinə) elektron vergi hesab-fakturası ilə yanaşı, elektron qaimə-faktura da verilməlidir.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Bu ilin iyun ayında «Azexport.az» portalına **34,2 milyon** ABŞ dolları məbləğində ixrac sifarişləri daxil olub, ötən ilin yanvarından bu il iyunun 30-dək portala 96 ölkədən daxil olan sifarişlərin dəyəri **759,4 milyon** dollar təşkil edib.
- Yanvar-iyun aylarında Azərbaycana **189 ölkədən 1.325 min** və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 10,2 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.
- Cari ilin ilk yarısında ölkəmizin qeyri-neft sektoru üzrə ixrac **846,5 milyon** ABŞ dolları olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə **110,5 milyon** dollar və ya 15 faiz artım deməkdir.
- Ümumi dəyəri **3,6 milyard** dollar olan layihələr üzrə sənaye parklarına indiyədək **2,6 milyard** ABŞ dollarınadək investisiya qoyulub.

## ƏRAZİ VERGİ ORQANLARINDA

- İyulun 19-da 3 saylı Ərazi Vergilər İdarəsi (ƏVİ) tərəfindən Qusar rayonunda, iyulun 21-də isə 9 saylı ƏVİ tərəfindən Ağdaş rayonunda fəaliyyət göstərən bələdiyyə təmsilçiləri ilə görüş keçirilmişdir. Görüşlər zamanı «Yerli (bələdiyyə) vergilərin ödəyiciləri olan fiziki şəxslərin və sahibkarlıq fəaliyyəti subyektlərinin uçota alınması» və «Yerli (bələdiyyə) vergi və ödənişlərin hesablanması, ödənilməsi və uçotu» ilə bağlı metodiki vəsaitlərin tətbiqi, «Nağdsız hesablaşmalar haqqında» Qanunla bağlı müzakirələr aparılmış, vergi ödəyicilərinin sualları cavablandırılmışdır.
- İyulun 26-da 5 saylı ƏVİ-nin əməkdaşları Şirvan şəhərində fəaliyyət göstərən fərdi sahibkarlarla görüş keçirmişdir. Tədbir zamanı iştirakçılara vergi inzibatçılığında və vergi qanunvericiliyində edilmiş dəyişikliklər və əlavələr, dövlətin həyata keçirdiyi iqtisadi siyasət çərçivəsində sahibkarların maraqlarının müdafiəsi istiqamətində atılmış addımlar, vergi ödəyicilərinin hüquq və vəzifələri barədə məlumat verilmişdir. Görüşdə 2018-ci ilin yanvar ayının 1-dən vergi ödəyiciləri tərəfindən malların, işlərin və xidmətlərin təqdim olunması zamanı elektron qaimə-fakturanın funksiyası, əhəmiyyəti və tətbiqi qaydaları diqqət yönəldilən başlıca mövzulardan biri olmuşdur.
- İyunun 26-da 14 saylı ƏVİ-nin əməkdaşları Tovuz rayonundakı Vergi ödəyicilərinə xidmət mərkəzində vergi ödəyiciləri ilə görüş keçirmişlər. Məlumatlandırma məqsədi daşıyan tədbirdə «Pərakəndə ticarət fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması», «İctimai iaşə fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması», «Topdansatış ticarət fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması», «İstehsal fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması» qaydaları, eləcə də əmək müqaviləsinin bağlanması və sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi barədə söhbət aparılmışdır.
- İyulun 27-də Sumqayıt şəhərində yerləşən 2 saylı Ərazi Vergilər Departamentinin inzibatı binasında «Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı»nda qeyd edilən kiçik və orta sahibkarlar tərəfindən informasiya-kommunikasiya texnologiyaları həllərinin tətbiqinin genişləndirilməsi üçün maarifləndirici və təşviqedici tədbirlərin görülməsi məqsədilə yeni uçota alınmış vergi ödəyicilərinin iştirakı ilə görüş keçirilmişdir. Tədbirdə fəaliyyətə yenicə başlayan sahibkarlarla elektron xidmətlərdən istifadənin mənimsənilməsi, vergilərin elektron qaydada ödənilməsi, eləcə də vergi ödəyicilərinin hüquqlarının müdafiəsi mövzusunda söhbət aparılmışdır.

# Nəzarət-kassa aparatları

Vergi Məcəlləsinə əsasən, nağd pul hesablaşmalarının aparıldığı təsərrüfat subyektləri və obyektlərində vergi ödəyiciləri tərəfindən nəzarət-kassa aparatlarının quraşdırılması (NKA) nəzərdə tutulub. Məcəllənin 16.1.8-ci maddəsinə görə, pərakəndə ticarət və (və ya) ictimai iaşə fəaliyyəti üzrə məşğul olan vergi ödəyiciləri nağd pul hesablaşmalarını NKA vasitəsilə həyata keçirməlidirlər.

NKA - malların (işlərin, xidmətlərin) təqdim olunması zamanı hesablaşmaların qeydiyyatında istifadə edilən, fiskal yaddaşa malik olan və vergi orqanlarında müəyyən edilmiş qaydada qeydiyyatdan keçən elektron avadanlıq və ya kompüter sistemləridir.

Vergi Məcəlləsinin 50-ci maddəsinin 7-ci bəndinə əsasən, Azərbaycan Respublikasının ərazisində nağd pul hesablaşmaları aparan vergi ödəyiciləri belə hesablaşmaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada NKA vasitəsilə həyata keçirirlər.

### NKA-nın qeydiyyata alınması

Bunun üçün vergi ödəyicisi tərəfindən ərazi üzrə vergi orqanına müvafiq ərizə («Nəzarət-kassa aparatının qeydiyyata alınması (qeydiyyatdan çıxarılması) haqqında Ərizə») verilməli və bu ərizəyə aşağıda qeyd olunan sənədlər əlavə edilməlidir:

- STXM-in NKA-nın quraşdırılması barədə aktı;
- Ərizənin təqdim olunma tarixinə NKA-nın fiskal yaddaşının göstəricisini əks etdirən çek;
- NKA-da quraşdırılmış elektron məsafədən ötürmə qurğusu və ya elektron nəzarət lenti barədə STXM-in aktı.

Aktda istifadədə olan nəzarət-kassa aparatının fiskal yaddaşı dəyişdirildikdən və yeni fiskal yaddaşın hesabatı alındıqdan sonra nümunə kimi 10 qəpiyə qədər məbləğdə NKA-ya mədaxil edilmiş dövriyyə barədə «Z» hesabatının surəti əlavə olunmalıdır.

Elektron formada ərizə eyni zamanda müqavilə əsasında vəkil olunmuş Servis Texniki Xidmət Mərkəzi adından da göndərilə bilər və bu zaman PDF fayl şəklində müqavilə də əlavə edilməlidir.

### NKA-dan azad olunan təsərrüfat subyektləri

Vergi Məcəlləsinin 16.1.8-ci maddəsinə əsasən, bəzi fəaliyyət növləri nağd hesablaşmaları NKA vasitəsilə aparmaqdan azaddırlar. Onlar aşağıdakılardır:

- qəzet və jurnalların satışı (belə satış dövriyyəsinin ümumi dövriyyədəki payı 50 faizdən çox olduqda);
- kənd təsərrüfatı məhsullarının bazarlarda, yarmarkalarda və səyyar qaydada satışı;
- səyyar, bazarlarda və digər kütləvi ticarət yerlərində piştaxtadan, avtomobildən və qoşqu vasitələrindən pərakəndə satış fəaliyyəti;
- qiymətli kağızların və lotereya biletlərinin satışı;
- elektrik enerjisi, qaz, su, isti su təchizatı və mərkəzi qızdırma sistemi obyektlərinin fəaliyyəti.


26.06.18 23:14 TARiX OFF
YASAMAL R/NU H.CAViD PR.
Ə.HAQVERDiYEV KÜÇ.KƏS.QEY.YAŞ
F/Ş MƏMMƏDOV QORXMAZ A.
VÖEN 3102258332-13001
*** KAFE ***
ŞÖBƏ1 SV%4.00 *1.00
YEKUN *1.00
SV *0.04
27.06.18 13:35 1
KASSiR №1 /F ORiON №0021355

### Qaydaların pozulması maliyyə sanksiyasına səbəb olur

Nağd pul hesablaşmalarının aparılması qaydalarının pozulması halları baş verdikdə, yəni NKA tətbiq edilmədikdə vətəndaşlar Vergilər Nazirliyinin «195-1» Çağrı Mərkəzinə müraciət edə bilərlər.

Vergi Məcəlləsinin 58.7-ci maddəsinə əsasən, nağd pul hesablaşmalarının aparılması qaydalarının pozulması halları baş verdikdə, yəni NKA tətbiq edilmədikdə aşağıdakı məbləğdə maliyyə sanksiyası tətbiq olunur.

- təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə 1000 manat;
- təqvim ili ərzində belə hallara ikinci dəfə yol verildikdə 4000 manat;
- təqvim ili ərzində belə hallara üç və daha çox dəfə yol verildikdə 6000 manat.

**NKA çeklərində aşağıdakı məlumatlar olmalıdır:**

- vergi ödəyicisinin adı;
- VÖEN-i;
- çekin vurulması tarixi və saatı;
- obyektin adı və yerləşdiyi ünvan;
- malın və ya xidmətin (işin) adı, ölçü vahidi, miqdarı, bir vahidinin qiyməti və yekun məbləğ (o cümlədən ƏDV-nin və ya sadələşdirilmiş verginin məbləği);
- gün ərzində vurulmuş çeklərin sayı və nömrəsi;
- NKA-nın markası və zavod nömrəsi;
- NKA-nın fiskal rejiminin nişanı (əlaməti).

# İqtisadi inkişaf əməkhaqqının artması üçün potensial yaradacaq

Azərbaycanın iqtisadi inkişafı ölkədə orta aylıq əməkhaqqının daha da yüksək olması üçün yetərincə potensial yaradacaq. Bu barədə Milli Məclisin deputatı, iqtisadçı ekspert Tahir Mirkişili deyib. Onun sözlərinə görə, Azərbaycan MDB ölkələri arasında orta aylıq əməkhaqqının səviyyəsinə görə devalvasiyadan öncəki 2014-cü ildə də 558 dollar əməkhaqqı ilə 4-cü yerdə qərarlaşmışdı. Keçən 3 il ərzində MDB ölkələrində baş verən devalvasiyalar bütün MDB məkanında orta aylıq əməkhaqqının dollar ekvivalentində səviyyəsini azaltdı. Belə ki, Rusiyada orta aylıq əməkhaqqı 2014-cü ildəki 896 dollardan 670 dollara, Qazaxıstanda isə 686 dollardan 459 dollara endi. Əsas səbəb isə bu ölkələrdə baş verən devalvasiyalar nəticəsində dollarla hesablanan məbləğlərin kiçilməsi oldu.

«Azərbaycan iqtisadiyyatı artıq davamlı olaraq müsbət dinamika nümayiş etdirir. Qeyri-neft sektorunun payı durmadan artır və artıq 65 faizə yaxındır. Sənaye və kənd təsərrüfatı istehsalı sürətlə artır, ixracın həcmi böyüyür, xidmət sektorunun payı artır. Ölkə Prezidentinin Sərəncamı ilə hər il əməkhaqlarının və pensiyaların artımı da ölkədə ümumi orta aylıq əməkhaqqının artırılmasına təsir etməkdədir. Ümumilikdə, Azərbaycanda iqtisadi inkişaf ölkədə orta aylıq əməkhaqqının daha da yüksək olması üçün yetərincə potensial yaradacaq», - deyə iqtisadçı ekspert diqqətə çatdırıb.

# Sağlamlıq birinci şərtdir

İndi dünyada düzgün qidalanmaq, sağlamlığa ziyan olan məhsulların istehlakının azaldılması istiqamətində total tədbirlər görülür. Bu tədbirlər maarifləndirmə ilə yanaşı, müəyyən inzibati addımların atılmasını da əhatə edir.

### Energetik içkilər

İstifadəsinə ilk dəfə 1929-cu ildə xəstəxanada dərman kimi başlanan energetik içkilər zaman keçdikcə enerjini bərpa edən qida məhsulu kimi reklam olunmağa başladı. Yaponiyada 1960-cı ildən satılmağa başlanan bu içki qısa müddət sonra populyarlaşdı. 2000-ci illərin sonundan Avropada böyük satış bazarına sahib olan energetik içkilər artıq dünyanın hər yerində qida məhsulu kimi istifadə olunur.

Son illər Azərbaycanda da - xüsusilə gənclər arasında - energetik içkilərə tələb kəskin artıb. Energetik içkilərlə bağlı reklam kampaniyaları, insanların kütləvi toplaşdığı yerlərdə onların pulsuz paylanılması bu içkilərə marağı və aludəçiliyi daha da artırıb.

Məsələ bundadır ki, bəzi ölkələrdə artıq bu içkilərin satışına qadağa, bir sıra ölkələrdə isə məhdudiyyətlər qoyulub. Məsələn, 2010-cu ildə ABŞ-da kofein tərkibli spirtli enerji içkiləri tamamilə satışdan çıxarılıb. Elə həmin il Litvada energetik içkilərin yetkinlik yaşına çatmayanlara satışına qadağa qoyulub. 2015-ci il mayın 1-dən Rusiyanın Moskva vilayətində də eyni məhdudiyyət tətbiq edilir. Bu cür tədbirlər bir sıra digər ölkələrdə də tətbiq olunur.

Azərbaycan Respublikası Milli Məclisinin Səhiyyə komitəsinin sədr müavini Musa Quliyevin fikrincə, ölkəmizdə energetik içkilərin kütləvi şəkildə yayılması, xüsusilə gənclərin buna maraq göstərməsi narahatlıq doğuran məsələlərdəndir: «Ümumiyyətlə, son illərdə energetik içkilərdən qəfil ölüm halları çoxalıb. Bütün dünyada, o cümlədən Azərbaycanda gənclər və yeniyetmələr arasında energetik içkilərin fəsadları artıb. Bu içkilərin inkişaf etməkdə olan orqanizmə vurduğu ziyan daha çoxdur. Onlar insanın istər psixoloji durumuna, istər ürək-damar sisteminə, istərsə də maddələr mübadiləsinə mənfi təsir göstərir. Energetik içkilərin qəbulu yuxu, əsəb sisteminin pozulmasına gətirib çıxarır, bəzi hallarda isə insanlar öz fəaliyyətlərinə nəzarət edə bilmirlər».

M.Quliyev hesab edir ki, bu amilləri nəzərə alaraq, Azərbaycanda energetik içkilərin satışının məhdudlaşdırılması, uşaqlara əlçatanlığının minimuma endirilməsi üçün tədbirlər görülə bilər. Deputat hesab edir ki, energetik içkilər Azərbaycanda aksiz dərəcəsi təyin olunan mallar siyahısına daxil edilməlidir.

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov mövzu ilə bağlı bildirib ki, rəhbərlik etdiyi qurum artıq 20 ildir ki, istehlakçı hüquqlarını qoruyan «Consumers International» beynəlxalq istehlakçı təşkilatın tərkibində fəaliyyət göstərir. Hər 5 ildən bir dünyanın istehlakçı hüquqlarını qoruyan bu dünya təşkilatı tərəfindən energetik içkilər xüsusi təhlil olunur və bunun insan orqanizminə ziyanları haqqında məlumatlar yayılır. Çox yaxşı haldır ki, təşkilatlar arasında bu məsələ ilə bağlı güclü təbliğat aparılır: «Bir müşahidə aparın. Bulvarda ağ mərmərin üzərinə tökülən energetik içki mərmərə qır kimi yapışır. Fizikanın qanunlarına görə, bu içkini qəbul edərkən insan bədəni sərinləyir, amma bədəndən enerji ayrılır. Yaxşı ki, heç olmasa, məktəb bufetlərində belə içkilərin satışına qadağa qoyulub. Mən birmənalı olaraq təklif edirəm: ölkədə bu içkilərin istehsalı azaldılsın, xaricdən gətirilərkən gömrük rüsumu artırılsın və böyük məbləğdə vergi tətbiq edilsin. Bir sözlə, energetik içkilərə əlçatanlıq minimum səviyyəyə endirilsin».

E.Hüseynov təəssüflə qeyd edib ki, bir sıra beynəlxalq idman yarışlarında bu içkilər sponsor qismində təbliğ olunur, reklam edilir. Bu da istehlakçıları çaşdırmaq deməkdir.

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin məlumatına görə, energetik içkilər tərkibində kofein, taurin, vitaminlər, bitki mənşəli əlavələr, şəkər, yaxud digər dadlandırıcı maddələr olan, çəki itkisinə səbəb olan, dözümlülük, fiziki gücü və diqqəti gücləndirən içki kimi reklam edilən qida məhsuludur. Agentlik xəbərdarlıq edir ki, bu cür içkilərin istehsalında istifadə olunan maddələr gündəlik normadan artıq qəbul edildiyi halda, orqanizmdə müəyyən fəsadlar törədə bilər. Bu səbəbdən, enerji içkiləri qəbul edərkən bir neçə məqama diqqət etmək lazımdır:

- məhsul alınarkən onun tərkibi ilə tanış olmaq vacibdir;
- gündəlik qəbul 1 qabdan artıq olmamalıdır;
- hamilə qadınlar və uşaqlar tərəfindən qəbul edilməsi qadağandır;
- spirtli içkilərlə birlikdə qəbul edilməsi zəhərlənməyə səbəb ola bilər.

Energetik içkilərin tərkibindəki şəkər tez bir zamanda qanla təmasa girir, oksidləşmə prosesində iştirak edir, əzələləri, beyni və digər həyati əhəmiyyət daşıyan orqanları enerji ilə təmin edir. Artıq dozada qəbul edildikdə qanda təzyiqin qəfildən qalxmasına və ya şəkərin səviyyəsinin artmasına səbəb ola bilər. Yüksək qan təzyiqi və qanda şəkərin artması əsəbilik, yuxusuzluq kimi hallara gətirib çıxara bilər. Belə içkilərin tərkibində olan kofein artıq istifadə edildiyi zaman insanda asılılıq yaradır, ürək döyüntülərinin sürətini artırır və digər mənfi fəsadlara gətirib çıxarır.

### «Şəkər vergisi»

Bu ilin may ayında iki mindən artıq həkim Almaniyanın Kansleri Angela Merkelə, onun rəhbərlik etdiyi hökumətin nazirlərinə və ölkədəki aparıcı partiya liderlərinə ünvanladıqları açıq məktubda bütün ölkə ərazisi üzrə şəkərdən izafi istifadənin federal səviyyədə qarşısının alınması üçün mübarizə tədbirlərinin görülməsini xahiş etmişdi. Təklifdə tütün məhsullarına, şəkər də daxil olmaqla, bir sıra məhsullara (ilk növbədə, şirin içkilərə) vergilərin və aksizlərin tətbiqinin zəruriliyi, eləcə də uşaqlara ünvanlanmış reklamların qadağan olunması qeyd edilmişdi.

Böyük Britaniyada bu ilin aprel ayının 6-da qüvvəyə minmiş «şəkər vergisi»nin tətbiqində əsas məqsəd uşaqların piylənməsinə qarşı mübarizə aparmaqdır. Bu yığım barədə müzakirələrə iki il əvvəl başlanmışdı və o vaxtdan bəri ölkədə şirin içkilərin tərkibində işlədilən şəkərin miqdarı 45 milyon kiloqram azaldılmışdır. Qida istehsalçıları öz məhsullarının reseptinə yenidən baxaraq vergi tutulan həddi aşmamaq üçün müvafiq addımlar atmışlar.

İngiltərə ictimaiyyətində «şəkər vergisi» adlandırılan qanuna görə, 100 millilitr içkinin tərkibindəki şəkər 5 qramdan artıq olduqda litr başına 18 penni vergi alınmasını nəzərdə tutur. 100 millilitr içkidə istifadə edilən şəkərin miqdarı 8 qramdan artıq olduqda isə bu göstərici 24 penni təşkil edir.

Britaniya Xəzinədarlığının hesablamasına görə, istehsalçıların içkilərin tərkibindəki şəkəri azaltması sayəsində birinci il «şəkər vergisi»ndən büdcəyə cəmi 240 milyon funt sterlinq vəsait daxil olacaq. Bu göstərici əvvəlcə proqnozlaşdırıldığının təxminən yarısına bərabərdir: ilkin olaraq bu vergi üzrə 520 milyon funt sterlinq vəsait yığılacağı planlaşdırılmışdı.

Böyük Britaniyanın şirin içki istehsalı ilə məşğul olan «Coca-Cola», «Britvic» və «Lucozade Ribena Suntory» kimi aparıcı şirkətlərinin hamısı öz məhsullarının tərkibində dəyişiklik etmişlər. Buna baxmayaraq, ölkədə ən çox satılan «Coca-Cola Classic» içkisinə görə «şəkər vergisi» ödənilməli olacaq. «Tesco», «Asda» və «Morrisons» ticarət şəbəkələri də brend içkilərin reseptinə yenidən baxmaq məcburiyyətində qalmışdır: indi onlar içkinin tərkibindəki şəkərin miqdarının vergi üçün müəyyənləşdirilmiş həddən artıq olmamasına xüsusi əhəmiyyət verirlər.

**Fəxriyyə İKRAMQIZI**

# E-imza Aİ-nin tələblərinə uyğunlaşdırılır

**Avropa İttifaqı (Aİ) Azərbaycana elektron imzaların qarşılıqlı tanınmasında və qeyri-rezidentlər tərəfindən istifadəsinə imkan yaradılmasında dəstəyini artıracaq.**

Avropa Komissiyasının Şərq Tərəfdaşlığı üzrə rəhbəri Lourens Meredit bildirib ki, Aİ Azərbaycanla ticarət əlaqələrinin genişləndirilməsi, investisiyaların artırılması və beynəlxalq ticarət sisteminə inteqrasiyasının sürətləndirilməsi istiqamətində işləri davam etdirəcək. Qeyd olunub ki, Azərbaycanın istehsal etdiyi məhsulların xarici bazarlara daha asan çıxarılması, eləcə də beynəlxalq elektron kommersiya platformalarına birbaşa çıxışın əldə olunması üçün biznes dairələri arasında e-imza mühüm əhəmiyyət kəsb edir. Elektron imza azərbaycanlı iş adamlarının dünya elektron ticarət şirkətləri ilə sıx əlaqələr qurmasında mühüm rol oynayır. Bu məqsədlə e-imzaların qarşılıqlı tanıdılmasının əhatə dairəsi daha da genişləndirilməlidir.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin İnformasiya cəmiyyətinin və elektron idarəçiliyin innovativ inkişafı şöbəsinin müdiri Rəşad Əzizov bildirib ki, e-imza, o cümlədən «ASAN imza» sertifikatlarının ölkələrarası qarşılıqlı tanınması və hüquqi bazanın təkmilləşdirilməsi sahəsində mühüm işlər görülüb. Elektron identifikasiya və etibarlı xidmətlər üzrə ölkəmizdəki mövcud vəziyyət araşdırılıb və Avropa standartlarına uyğunlaşdırılması istiqamətində addımlar atılıb. Avropa İttifaqı ilə birgə həyata keçirilən «Azərbaycan Respublikasında elektron xidmətlərin və elektron ticarətin inkişafının gücləndirilməsi» layihəsi elektron imzaların tanıdılması sahəsində mühüm əhəmiyyət kəsb edir. Həmin layihə çərçivəsində Azərbaycanda mövcud olan e-imza qanunvericiliyi təkmilləşdiriləәk Aİ-nin tələblərinə uyğunlaşdırılacaq.

Azərbaycanın Avropa İttifaqının «FutureTrust» layihəsinə assosiativ tərəfdaş seçilməsi elektron imzaların qarşılıqlı tanınmasını asanlaşdıracaq. Layihənin əsas məqsədi elektron ticarətdə elektron identifikasiya (eID) və etibarlı xidmətlər üzrə eIDAS qanunvericiliyinin praktiki tətbiqini dəstəkləmək və etibarlı xidmətlərin Aİ və onun hüdudlarından kənarda yayılmasını asanlaşdırmaqdır. Layihə təkmil sertifikat, elektron imza və vaxt möhürü ilə əlaqəli olan etimadlı xidmətlərin təkmilləşdirilməsində mühüm rol oynaycaq. Aİ ilə tərəfdaşlıq elektron imzaların qarşılıqlı tanınması işlərini sürətləndirməklə ölkəmizdə sahibkarlıq fəaliyyəti ilə məşğul olan vətəndaşlarla xarici biznes tərəfdaşları arasında sənədlərin, elektron müqavilələrin real vaxt rejimində e-imza ilə imzalanması və transsərhəd elektron xidmətlərin həyata keçirilməsinə imkan yaradacaq.

Milli Məclisin İqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin sədri Ziyad Səmədzadə bildirib ki, Azərbaycanda «Beynəlxalq müqavilələrdə elektron kommunikasiyaların istifadəsinə dair Konvensiya»ya qoşulmaqla elektron imzaların qarşılıqlı tanıdılması istiqamətində əlverişli zəmin formalaşıb. Həmin konvensiya ölkəmizin qlobal elektron ticarət məkanına inteqrasiyasına və e-ticarətlə bağlı hüquqi məsələlərin tənzimlənməsinə fürsət yaradır. Xarici ölkələrlə elektron imzaların qarşılıqlı tanınması elektron sənədlərin təsdiqində vaxt qənaətinə və bürokratik əngəllərin aradan qaldırılmasına şərait yaradacaq.

E-imza ilə bağlı qarşıda duran yeniliklərdən biri 2019-cu ildən Azərbaycanda yeni nəsil şəxsiyyət vəsiqələrində e-imza sertifikatının tətbiqidir. Nəzərdə tutulan yenilik e-imzanın kütləviləşməsinə gətirib çıxaracaq.

**ELBRUS**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Sənaye parklarında idxal-ixrac əməliyyatları zamanı gömrük rəsmiləşdirilməsi prosedurları sadələşdiriləcək.

«Sumqayıt Kimya Sənaye Parkı» MMC, «Balaxanı Sənaye Parkı» MMC, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və «Yaşıl dəhliz» QSC arasında sənaye parklarında gömrük prosedurlarının operativ rəsmiləşdirilməsinə dair əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

«Fitch» beynəlxalq reytinq agentliyi Azərbaycanın emitentin uzunmüddətli xarici və yerli valyutada defolt reytinqi üzrə proqnozunu «BB+» səviyyəsində təsdiq edib.

Serbiyada Azərbaycan Respublikasının «AzVirt» şirkətinin də tikintisinə cəlb olunduğu Belqrad dairəvi yolunun təməlqoyma mərasimi keçirilib.

«Güzəştli mənzil» sistemi vasitəsilə mənzillərin seçimi zamanı bərabər şəraitin yaradılması, şəffaflığın və operativliyin təmin edilməsi məqsədilə MİDA aidiyyəti dövlət strukturları, şirkət və qurumlarla birlikdə yaranmış nasazlıqları aradan qaldıraraq, sistemin fəaliyyətinin təkmilləşdirilməsini həyata keçirib.

Bakıda Özbəkistanın turizm potensialının təqdimat mərasimi olub.

# Qaydalar hamı üçün eyni olarsa...

Son zamanlar Azərbaycanın mobil cihazlar bazarında nizam yaradılması əhəmiyyətli dərəcədə aktuallaşmış məsələlərdəndir. Problemin köklü şəkildə həlli məqsədilə qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində müəyyən addımlar atılır. Bu yaxınlarda Prezident İlham Əliyev «Dövlət rüsumu haqqında» Qanuna dəyişiklik edilməsi barədə sərəncam imzalayıb. Dəyişikliyə əsasən, satış və digər sahibkarlıq fəaliyyəti məqsədilə hüquqi və fiziki şəxslər tərəfindən idxal olunarkən gömrük rüsumu və əlavə dəyər vergisi tutulmaqla rəsmiləşdirilmiş mobil cihazlar istisna edilməklə, fiziki şəxs tərəfindən şəxsi istehlak üçün ölkəyə gətirilən mobil cihazların qeydiyyata alınmasına görə dövlət rüsumu tətbiq olunacaq. Hər il üçün mobil cihazların qeydiyyata alınmasına görə dövlət rüsumunun məbləği Nazirlər Kabineti tərəfindən təsdiq ediləcək. Qanun 2018-ci il 1-dən qüvvəyə minib.



**Mövzu ilə bağlı suallarımızı «Lenovo Datacenter Group» şirkətinin Azərbaycan üzrə nümayəndəsi Rasim Bəxşi cavablandırır.**

***- Mobil cihazlar bazarındakı vəziyyət son zamanlar xeyli aktuallaşıb. Nüfuzlu istehsalçılardan birinin Azərbaycandakı rəsmi nümayəndəsi kimi bu məsələyə münasibətiniz maraqlıdır...***

- Mobil telefon və aksessuarlarının müxtəlif qanunsuz yollar ilə ölkəyə gətirilməsi problemi, demək olar ki, bütün ölkələrdə var. Azərbaycan da bu problemdən kənarda deyil və dövlət qurumları tərəfindən dəfələrlə belə faktların aşkarlanmasının şahidi oluruq. Qeyri-leqal yollarla ölkəyə gətirilən məhsullar istehsalçı şirkətin rəsmi distribütorunun hüquqlarının pozulmasına səbəb olur. Telefon satışı üzrə rəsmi distribütorlar yerli tələblərə, istismar qaydalarına uyğun, yəni konkret ölkə üçün nəzərdə tutulmuş məhsullar idxal edirlər. Onlar bu sahəyə investisiya qoyur, öz ofislərini və xidmət şəbəkələrini qurur, işçi heyəti toplayır, fəaliyyət sahəsinə görə vergi ödəyir, digər rəsmi ödəmələri həyata keçirirlər. Mobil vasitələri qaçaqmalçılıq yolu ilə gətirənlər isə belə öhdəliklərə əməl etmirlər və məhsullarını aşağı qiymətə təklif edirlər. Son nəticədə bazardakı satışın böyük hissəsi qeyri-qanuni yollarla bazara girmiş şirkətlərin və ya fərdi şəxslərin əlində cəmləşir. Bu vəziyyət fəaliyyətini qanun çərçivəsində quran şirkətlərdə satışların əsaslı şəkildə azalmasına səbəb olur. Müşahidələr göstərir ki, satış nöqtələrində eyniadlı saxta telefonların qiymətləri bu malları rəsmi idxal edən şirkətlərin təqdim etdiyi qiymətlərdən vergidən yayındırılmış məbləğ miqdarında aşağıdır. Bu proses fəaliyyətini qanun çərçivəsində quran sahibkarlara ziyan vurmaqla, dövlət büdcəsindən də vəsaitin yayındırılmasına yol açır.

Qeyri-qanuni yollarla gətirilən mobil cihazların keyfiyyəti də mübahisəlidir. Bu cihazların qiyməti aşağı olsa da, onların keyfiyyəti ilə bağlı zəmanət verilmir. Bu baxımdan, istehlakçıların da maarifləndirilməsi önəmlidir. Çünki istehlakçı ucuz qiymətə telefon aldığını zənn etsə də, əslində, qeyri-qanuni satış bir tərəfdən dövlətin büdcəsinə ziyan vurmaqla onun sosial rifahına mane olur, digər tərəfdən də onu keyfiyyətsiz məhsulların fəsadları ilə üz-üzə qoyur.

***- Bazarı saxta mobil məhsullardan qorumaq üçün hansı metodlardan istifadə olunur?***

- Bu sahəni nizamlamaq üçün mövcud metodlardan biri «brand protection», yəni brendin müdafiəsi deyilən siyasətdir. Bu o deməkdir ki, hər bir istehsalçı ölkədə olan tərəfdaş şirkətlərə sertifikat, yaxud müqavilə verir. Həmin şirkət isə bu sənədi vergi və gömrük orqanlarına, digər aidiyyəti dövlət orqanlarına təqdim edir. Bundan sonra həmin şirkət rəsmi idxalçı kimi dövlət qeydiyyatına alınır və rəsmi müqavilə əsasında yerli bazarı məhsulla təmin edir. Bu həm fiziki, həm də hüquqi şəxs ola bilər. Qeydiyyat proseduru başa çatdıqdan sonra şirkət yerli bazarın inkişaf etməsi üçün müvafiq tədbirlərini görür. Bu qaydalar çərçivəsində qurulmuş fəaliyyət həm istehsalçı və tərəfdaş şirkətlər, həm istehsalçılar, həm də dövlət orqanları üçün daha rahat, sərfəli və məqbul sayılır. Çünki istehsalçı və tərəfdaş şirkət qəbul edilmiş qaydalar çərçivəsində özü biznesini genişləndirir, istehlakçı keyfiyyətli məhsul alır, şirkətin xidmətlərindən bəhrələnir, dövlət büdcəsi isə biznesin bu növündən vergi şəklində mənfəət əldə edir.

***- Mobil rabitə cihazları bazarının iştirakçılarından biri kimi təklifiniz nədir?***

- Bu sahədə nəzarətin tənzimlənməsi üçün dünyada qəbul olunmuş norma və qaydaların tətbiqi məqsədəuyğun olardı. Bunun üçün mövcud qanunvericilik təkmilləşdirilməli, nəzarət orqanları biri ilə əlaqəli şəkildə fəaliyyət göstərməli, çevik qərarlar qəbul edilməlidir. Markaları qoruyan təlimatlar, inzibati qaydalar işləməlidir. Məsələn, ölkədə rəsmi idxalçı reyestri yaradılmalıdır. Reyestr müqavilə, məktub, yaxud istehsalçı şirkətin sertifikatı əsasında aparıla bilər. Qonşu Rusiyada və başqa ölkələrdə bu cür reyestr sistemi fəaliyyətdədir. Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi və digər aidiyyəti qurumlar istehsalçı şirkətlərə məktubla müraciət edə bilər ki, Azərbaycanın mobil rabitə cihazları bazarında bəzi şirkətlər rəsmi dövlət qeydiyyatı əsasında fəaliyyət göstəririrlər. Məktubda şirkətlərin siyahısı verilir və təklif olunur ki, onlarla tərəfdaş kimi fəaliyyət göstərmək olar. Hətta bu şirkətlərin reyestri hər yarım ildə, yaxud ildə bir dəfə yenidən hazırlana, bu zaman yeni şirkətlər tərəfdaş kimi fəaliyyətə başlaya, tələblərə cavab verməyənlərin isə qeydiyyatı ləğv oluna bilər.

***- Mobil rabitə cizahlarının istehsalçılarının rəsmi tərəfdaşlarının Azərbaycandakı fəaliyyəti barədə nə deyə bilərdiniz?***

- İstehsalçıların rəsmi tərəfdaşları dedikdə distribütor və ya böyük rəsmi pərakəndə satış satış şəbəkəsi nəzərdə tutulur.

İdxalçı isə təkcə distribütordan ibarət deyil və istənilən şirkət ola bilər. Tutaq ki, pərakəndə satış təşkil edən şəbəkə böyük bir anbar formalaşdırır və bütün mobil cihazları özü idxal edir. Amma bu fəaliyyət rəsmi qaydada, müvafiq normativ qaydalar təşkil olunmalıdır. İstehsalçılar da özünə tərəfdaş seçəndə rəsmi qeydiyyatı, böyük iş təcrübəsi və müsbət reputasiyası olan şirkətlərə üstünlük verirlər. Bizim tərəfdaşlıq etdiyimiz şirkətlər həm də dövriyyəsi böyük olan vergi ödəyiciləridir. Fərdi şəxslər və ya yenicə fəaliyyətə başlayan şirkətlərin bir qismi vergidən yayınmağa çalışırlar. Ya vergini düzgün hesablamır, ya məhsulları satandan sonra məlum olur ki, vergidən yayınmaya və ya hansısa başqa pozuntulara görə problemlər yaranıb - bu da sonda şirkətin əaliyyətini dayandırmasına səbəb olur. Bu cür hallar istehlakçıya, bazara və dövlətə zərər verir.

Mobil telefon bazarında təkmil mexanizmlərin tətbiqi həm dövlətin, həm də istehlakçıların marağındadır. Azərbaycanda mobil telefonlardan geniş istifadə olunur və bu sahənin qanuni əsaslarla fəaliyyəti sahibkarlar arasında da sağlam rəqabət, istehlakçılar üçün münasib qiymətlərlə təklif olunan mobil telefon və xidmətin təminatı deməkdir. Mobil telefon bazarında müşahidə olunan hallar daha təkmil mexanizmlərin tətbiqini zəruri edir. Məsələn, Türkiyə təcrübəsi bu baxımdan çox faydalıdır. Qardaş ölkədə fərdi istifadə məqsədilə ölkəyə gətirilən mobil telefonların qeydiyyatı üçün tətbiq olunan rüsumlar Azərbaycandakı rüsumlardan dəfələrlə yüksəkdir. Bir sıra ölkələrin təcrübəsində isə mobil telefonların qiymətindən asılı olaraq qeydiyyat rüsumu fərqli məbləğdə tətbiq edilir. Burada əsas məqsəd mobil rabitə bazarını keyfiyyətli telefonlarla təmin etməkdir. Azərbaycanda da istehlakçıların daha keyfiyyətli məhsullar və xidmətlərlə təmin olunması üçün mobil telefonların qeydiyyat prosedurlarını sərtləşdirmək məqsədəuyğundur.



**Müsahibimiz «Samsung» şirkətinin Qafqaz regionu üzrə nümayəndəliyinin baş direktoru Jae Hun Leeindir.**

***- Sizin üçün Azərbaycanda işləmək asandırmı?***

- Deməzdim ki, çətindir. Sadəcə, bəzi məqamlar var ki, işimizə problem yaradır. Çətinliklərdən danışarkən söhbət sadəcə məhsullarımızın satışından və ya biznesimizin gəlirliliyindən getmir. Söhbət Azərbaycan əhalisinə göstərilən xidmətlərdən və məhsullarımızın satışının daha da genişləndirilməsindən gedir.

***- Azərbaycan bazarındakı tələb və təklif «Samsung» şirkətinin maraqlarına cavab verirmi?***

- Dünyanın başqa ölkələrində olduğu kimi, Azərbaycan vətəndaşları da rasional xidmətə, qiymətə və ən yeni məhsullardan istifadəyə maraq göstərir. Hazırda «Samsung»un Azərbaycanda üç əsas məhsul kateqoriyası var: mobil telefonlar, televizorlar və məişət avadanlıqları. Bizim hesablamalarımıza görə, hazırda «Samsung»un Azərbaycandakı ən böyük bazarı mobil telefon bazarıdır. Bu bizi qane edir, amma qeyri-leqal yolla ölkəyə gətirilən məhsullar bizə problem yaradır. Çünki bazardakı mobil telefonların 30-35 faizinin qanunsuz yolla ölkəyə gətirilməsi ciddi problemdir. Bunun böyük bir hissəsi biznes qurumlarına, qalan hissəsi isə fiziki şəxslərə aiddir.

***- Sizcə, bu problemin kökündə nə dayanır?***

- Təbii ki, vergilərdən yayınmaq cəhdi. Vergilər isə iki hissədən ibarətdir: 18 faiz ƏDV və 15 faiz idxal vergisi. Bu, qiymət siyasətində ümumilikdə 36 faizə qədər fərq yaradır. Vergi qaçaqları bu işlə ona görə məşğul olurlar ki, onların qanunsuz yollarla ölkəyə gətirdikləri məhsullar təxminən 30 faiz ucuz qiymətlə bazara çıxarılır və çox asanlıqla da satılır. Biz Vergilər Nazirliyinin nümayəndələri ilə bu barədə bir neçə dəfə müzakirələr aparmışıq. Fikrimcə, məsələnin həlli yalnız «Samsung»un deyil, həm də mobil telefon bazarında rəsmi qaydada fəaliyyət göstərən digər təchizatçı şirkətlərin və Azərbaycan hökumətinin marağındadır. Hökumətdə də anlayırlar ki, gizli ticarət aradan qaldırılmalı, qaçaqmalçılıq şəffaf sxemlə əvəz olunmalıdır. Bu ilin martında Vergilər Nazirliyinin nümayəndələri ilə keçirilən görüşlərdə həmin məsələləri müzakirə etmişdik. Digər təchizatçılar, o cümlədən bazarı məhsullarla təmin edən yerli şirkətlər də şəffaf sxemə keçilməsinin marağındadırlar. Çünki qaçaqmalçılıq nə bizə, nə də tərəfdaşlarımıza lazımdır. Lakin bu problem bizim həll edə biləcəyimiz məsələ deyil, o işlər Azərbaycan hökumətinin səlahiyyətindədir. Həlelik isə biz tərəfdaşlarımızdan bazara qanunsuz gətirilmiş məhsulların onların fəaliyyətinə əngəl yaratması barədə şikayətlər eşidirik. Tərəfdaşlarımız bizimlə işləməyin çox çətin olduğunu, biznes fəaliyyətindən xeyir götürə bilmədiklərini deyirlər. Çünki ucuz qiymətə mal təklif edənlər bazarda təşəbbüsü ələ keçirirlər.

Biz hökumətin diqqətini bu sahəyə yönəltməyə çalışmışıq və bildiyimizə görə, tərəfdaşlarımızın özləri də aidiyyəti dövlət oraqanlarına, o cümlədən Vergilər Nazirliyinə, Dövlət Gömrük Komitəsinə, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə bu barədə rəsmi müraciət edilbər.

***- Vergidən yayındırılan mobil telefonlar daha çox kimə ziyan vurur: istehsalçı və tərəfdaş şirkətlərə, istehlakçıya, yoxsa dövlətə?***

- Gizli ticarət hər üç qrup üçün qəbuledilməzdir, amma bu, dövlətə daha çox ziyan vurur. Çünki dövlət büdcəsi ölkəyə gətirilən məhsullardan ödəniləcək bütün vergi və gömrük ödəmələrini itirmiş olur. Burada söhbət yalnız gömrük rüsumlarından, idxal vergisindən və ya ƏDV-dən yox, həm də ondan gedir ki, normal fəaliyyət göstərən distribütorlardan yığılacaq vergilər də itirilir. Çünki biznes rəsmi qaydada davam etsə, bu şirkətlər də böyüyər, öz gəlirlərindən daha çox vergi ödəyər, işçilərin sayının artması ilə dövlətə ödənilən verginin məbləği artar. Yəni gizli ticarətdən dövlətin itkiləri zəncirvari qaydada uzanır və bir-birinin ardınca potensial vergilər itirilir. Ona görə də qaçaqmalçılıqdan ziyan çəkən tərəflər arasında dövləti birinci qeyd etməliyik. Amma bu o demək deyil ki, bizim yerli təmsilçilərimiz və müştərilərimiz ziyandan kənarda qalır. Əksinə, müştərilərin aldadılması əlavə problemlər yaradır. Rəsmi qaydada gətirilən telefonlara ən azı bir il zəmanət verilir. Yəni bir il ərzində məhsulda hər hansı zavod qüsuru aşkarlanarsa, biz onu təmənnasız təmir edib müştəriyə qaytarırıq. Ölkəyə qeyri-rəsmi yolla gətirilmiş telefonu müştəri hüquqi əsasa malik sənədləşmə aparılmadan aldığına görə, problem yarandıqda onu servisə təqdim edə bilmir. Çünki qeyri-qanuni yolla ölkəyə gətirilmiş telefonlara verilən zəmanət də saxta olur.

***- «Samsung» dünyanın bir çox ölkələrində fəaliyyət göstərir. Azərbaycanı digər ölkələrin bazarlarından fərqləndirən nədir?***

- «Samsung» hər bazara uyğunlaşmağa çalışır. Biz heç vaxt müqayisə aparmırıq ki, hansısa bazarda vergilər daha yuxarı və ya aşağıdır. Əlbəttə, hər bazarın özünün strukturu var və biz çalışırıq ki, biznesimizi o bazarın qayda-qanunlarına uyğun şəkildə inkişaf etdirək. Bəzi ölkələrdə idxal vergisi 3 faizdir, bəzilərində isə Azərbaycandakı kimi 15 faiz təşkil edir. Amma bu, bizim üçün problem deyil, əgər qaydalar hamı üçün eyni olarsa və qaçaqmalçılıq qaradan qaldırılarsa, Azərbaycanda ölkə qanunlarına uyğun işləmək heç bir problem yaratmır. Həm də ona görə ki, məhsullarımızın satışı artdıqca ölkə iqtisadiyyatına qoyduğumuz investisiyaların həcmi də artır və biz bunda maraqlıyıq.

***- Qaçaqmalçılığa qarşı mübarizədə hansı qabaqlayıcı addımların atılmasını gözləyirsiniz?***

- Məsələn, idxal üçün elə bir tarif tətbiq oluna bilər ki, bu həm qaçaqmalçılığın, həm də bütövlükdə qanunsuz biznesin qarşısını alar. Bunu Azərbaycanın aidiyyəti dövlət qurumları, o cümlədən Vergilər Nazirliyinin rəsmiləri də bilir və problemin həlli istiqamətində yollar axtarırlar. Bu sahədə hökumətin fəal şəkildə hərəkətə keçməsini alqışlayırıq və görülən işlərin məntiqi sonluğa çatmasını arzulayırıq. Bundan həm dövlət, həm də tərəfdaş şirkətlərimiz, eyni zamanda müştərilərimiz mənfəət götürəcək.

## Müşahidələr göstərir ki, satış nöqtələrində eyniadlı saxta telefonların qiymətləri bu malları rəsmi idxal edən şirkətlərin təqdim etdiyi qiymətlərdən vergidən yayındırılmış məbləğ miqdarında aşağıdır

***Hazırladı:* Elxan SALAHOV**

# Torpaq vergisi

***Torpaq vergisi torpaq mülkiyyətçilərinin və ya istifadəçilərinin təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq torpaq sahəsinə görə hər il sabit tədiyyə şəklində hesablanır.***

### Torpaq vergisinin ödəyiciləri

Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində torpaq sahələri olan fiziki şəxslərdir. Fiziki şəxslərin Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində olan torpaq sahələri torpaq vergisinin vergitutma obyekti sayılır.

Fiziki şəxslər və bələdiyyə müəssisələri özlərinin mülkiyyət və istifadə hüquqlarını təsdiq edən sənədləri aldıqdan sonra 1 ay ərzində bələdiyyələrdə uçota durmalıdırlar. Torpaq üzərində fiziki şəxsin xüsusi mülkiyyət hüququ dövlət torpaqlarının özəlləşdirilməsi, bələdiyyə torpaqlarının özəlləşdirilməsi, alqı-satqısı və ayrı-ayrı fiziki və hüquqi şəxslərin mülkiyyətində olan torpaqların alqı-satqısı, vərəsəliyə keçməsi, bağışlanması, dəyişdirilməsi və torpaqla bağlı digər əqdlərin əsasında yaranır. Torpaq sahəsi üzərində istifadə hüququ müvafiq qərar (müqavilə) əsasında torpaqdan daimi və ya müvəqqəti istifadə edilməsidir. Torpaqdan istifadə hüququ daimi, qısamüddətli və uzunmüddətli ola bilər. Əvvəlcədən müddəti müəyyən edilmədən həyata keçirilən istifadə, torpaqdan daimi istifadə hesab olunur. Torpaqdan müvəqqəti istifadə, qısamüddətli - on beş ilədək və uzunmüddətli - on beş ildən doxsan doqquz ilədək müəyyən edilə bilər.

Dövlət və bələdiyyə mülkiyyətində olan torpaqlara görə torpaq vergisi hesablanmadığı üçün belə torpaqlar digər şəxslərə istifadəyə verilərkən torpaq vergisinin vergitutma obyekti yaranır və torpaq vergisi onu istifadəyə götürən şəxslər tərəfindən ödənilir. Xüsusi mülkiyyətdə olan torpaqlara görə torpaq vergisi onun mülkiyyətçisi tərəfindən ödənildiyi üçün belə torpaqlar digər şəxslərə istifadəyə verilərkən onu istifadəyə götürən şəxslərdən həmin torpağa görə torpaq vergisinin ödənilməsi tələb olunmur.

Torpaq sahələri üzərində hüquqlar onun müəyyən olunmuş qaydada dövlət qeydiyyatından keçirilməsindən sonra yaranır.

### Verginin dərəcəsi, hesablanması və ödənilməsi qaydası

Kənd təsərrüfatı torpaqlarına görə torpaq vergisi onların təyinatı üzrə istifadə edilməsindən asılı olaraq aşağıdakı qaydada hesablanır.

Təyinatı üzrə istifadə edilən və ya irriqasiya, meliorasiya və digər aqrotexniki səbəblərdən təyinatı üzrə istifadə edilməsi mümkün olmayan kənd təsərrüfatı torpaqlarının vergi dərəcələri torpaqların təyinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla şərti ballar əsasında torpaq sahəsinin hər bir hektarına görə hesablanır. Bir şərti balın qiyməti 6 qəpikdir (şərti ballar Nazirlər Kabineti tərəfindən müəyyən edilir).

Qeyd edilən kənd təsərrüfatı torpaqları Nazirlər Kabineti tərəfindən təsdiq edilən qayda və meyarlar əsasında müəyyən edilir.

Kənd təsərrüfatı fəaliyyəti üçün nəzərdə tutulan, lakin təyinatı üzrə istifadə olunmayan torpaqlar üzrə torpaq vergisinin dərəcəsi torpaq sahəsinin hər 100 kvadratmetrinə görə 2 manat müəyyən edilir.

Məsələn Yevlax rayonunda kənd təsərrüfatı məqsədləri üçün nəzərdə tutulan, lakin istifadə olunmayan 2 hektar torpaq sahəsinə görə torpaq vergisi aşağıdakı qaydada hesablanır:

(20,000/100) * 2 = 400 manat.

Kənd təsərrüfatı torpaqları istisna olmaqla torpaq sahəsinin hər 100 kvadratmetrinə görə aşağıdakı cədvəldə göstərilən dərəcələr tətbiq olunur:

| Yaşayış məntəqələri | Sənaye, tikinti-nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqlar *(manatla)* | | Yaşayış fondlarının, həyətyanı sahələrin torpaqları və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar *(manatla)* | |
|---|---|---|---|---|
| | *10000 $m^2$-dək olduqda* | *10000 $m^2$-dən yuxarı olan hissə üçün* | *10000 $m^2$-dək olduqda* | *10000 $m^2$-dən yuxarı olan hissə üçün* |
| Bakı şəhəri | 10 | 20 | 0,6 | 1,2 |
| Gəncə, Sumqayıt şəhərləri, Abşeron rayonu | 8 | 16 | 0,5 | 1,0 |
| Digər şəhərlər (rayon tabeliyində olan şəhrlər istisna olmaqla), rayon mərkəzləri | 4 | 8 | 0,3 | 0,6 |
| Rayon tabeliyində olan şəhərlərdə, qəsəbələrdə və kəndlərdə (Bakı və Sumqayıt şəhərlərinin, Abşeron rayonunun qəsəbə və kəndləri istisna olmaqla) | 2 | 4 | 0,1 | 0,2 |

### Verginin ödənilməsi müddəti

Fiziki şəxslərə torpaq vergisi torpaq sahələrinin ölçüsünə və torpaq vergisinin dərəcələrinə əsasən müvafiq ərazinin bələdiyyəsi tərəfindən hər il iyulun 1-dək hesablanılır.

Torpaq sahəsi bir neçə fiziki şəxsin mülkiyyətində və ya istifadəsində olan tikilinin altında olduqda və ya torpaq sahəsi onlara xidmət üçün ayrıldıqda, vergi onlara məxsus tikili sahələrinə mütənasib surətdə hesablanır və bələdiyyə tərəfindən hesablanmış torpaq vergisinin məbləği və ödənilmə müddəti barədə «Tədiyyə bildirişi» tərtib olunur və avqust ayının 1-dən gec olmayaraq fiziki şəxslərə çatdırılır. Torpaq vergisi fiziki şəxslər tərəfindən bərabər məbləğlərdə 15 avqust və 15 noyabr tarixlərindən gec olmayaraq müvafiq bələdiyyənin büdcəsinə ödənilir. Vergi torpağın əvvəlki sahibi tərəfindən ödənilmədiyi halda, vergi müəyyən edilmiş ödəmə vaxtına həmin torpağın sahibi tərəfindən ödənilir.

Torpağın alğı-satqısı üzrə əməliyyatın hansı tarixdə aparılmasından asılı olmayaraq, torpaq vergisi torpağın əvvəlki sahibi tərəfindən ödənilmədiyi halda, vergi həmin torpağı almış fiziki şəxs tərəfindən ödənilir. Torpağın alğı-satqısı üzrə əməliyyat 15 avqust və 15 noyabr tarixlərindən sonra aparıldıqda, torpaq vergisi torpağın əvvəlki sahibi tərəfindən ödənilir.

*Misal 1.* Kürdəmir rayonunun Muradxan kəndində fiziki şəxsin mülkiyyətində II keyfiyyət qrupuna aid olan 2,5 ha əkin sahəsi vardır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 29 dekabr tarixli 230 №-li qərarı ilə təsdiq edilmiş «Kadastr qiymət rayonları və ora daxil olan inzibati rayonlar üzrə kənd təsərrüfatı torpaqlarının təyinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla müəyyənləşdirilmiş şərti balları»na əsasən Kürdəmir rayonuna daxil olan Aran-Şirvan kadastr qiymət rayonunun II keyfiyyət qrupu üzrə torpaqların 1 ha üçün şərti bal 75 müəyyən edilmişdir.
Bu halda fiziki şəxsin 2,5 ha torpaq sahəsinə 11,25 manat (1 ha əkin sahəsinin şərti balı 75 x 0,06 manat x 2,5 ha) torpaq vergisi hesablanır.

*Misal 2.* Hacıqabul rayonunun düzən torpağında fiziki şəxs 50 ha otlaq sahəsini istifadəyə götürmüşdür. Muğan-Salyan kadastr qiymət rayonu üzrə Hacıqabulun düzən torpağında 1 ha otlaq sahəsinin şərti balı 9,8 (I keyfiyyət qrupunun şərti balı 98-in 1/10 hissəsi) təşkil edir.
Bu halda fiziki şəxsə 50 ha otlaq sahəsi üçün 29,4 manat (1 ha otlaq sahəsinin şərti balı 9,8 x 0,06 manat x 50 ha) torpaq vergisi hesablanır.

### Fiziki şəxslərin torpaq vergisi üzrə güzəşt və azadolmaları

Vergi Məcəlləsinin 207.2-ci maddəsinə əsasən, bu Məcəllənin 102.2-ci maddəsinə görə, Azərbaycan Respublikasının Milli Qəhrəmanları, Sovet İttifaqı və Sosialist Əməyi Qəhrəmanları, müharibə əlilləri, həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin dul arvadları (ərləri), 1941-1945-ci illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallar ilə təltif edilmiş şəxslərin mülkiyyətində olan torpaqlara görə torpaq vergisinin məbləği 10 manat azaldılır.

Güzəşt hüququ olan fiziki şəxsin bir neçə bələdiyyənin ərazisində torpaq sahələri olduqda, 10 manat məbləğində güzəşt fiziki şəxsin seçiminə uyğun olaraq bir bələdiyyə ərazisində hesablanmış torpaq vergisi məbləğindən və yaxud torpaq sahələrinin ölçülərinə mütənasib olaraq müxtəlif bələdiyyələrin ərazilərində hesablanmış vergi məbləğlərindən çıxılır.

Azərbaycan Respublikasının Prezidentinin sərəncamına əsasən yaradılan sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər qanunvericiliyə uyğun olaraq, sənaye, yaxud texnologiyalar parklarında qeydiyyata alındıqları hesabat ilindən başlayaraq, sənaye, yaxud texnologiyalar parklarında istifadə etdikləri torpaqlara görə 7 il müddətinə torpaq vergisini ödəməkdən azaddırlar.

*Misal 3.* Güzəşt hüququna malik müharibə əlilinin mülkiyyətində Gəncə şəhərində 500 kv.metr həyətyanı sahəsi və şəhərdən kənarda istifadəsində 600 kv.metr bağ sahəsi vardır. Bu halda, 10 manat məbləğində güzəşt hüququ müharibə əlilinin mülkiyyətində olan torpağa verildiyinə görə 500 kv.metr həyətyanı sahəyə görə hesablanmış 2,5 manat (500 kv.metr x 0,5 manat/100 kv.metr) torpaq vergisi ödənilmir, lakin istifadədə olan 600 kv.metr torpaq sahəsinə hesablanmış 3 manat (600 kv.metr x 0,5 manat/100 kv.metr) vergi ödənilir.

**F. İKRAMQIZI**

## 2018-ci ilin avqust ayı ərzində vergi orqanına təqdim edilməli bəyannamələr və ödənilməli VERGİLƏR

**Əmlak və torpaq vergisinin ödəyiciləri olan müəssisələr**

- 2018-ci il üzrə hesablanmış torpaq vergisinin yarısını cari ilin avqust ayının 15-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
- 2018-ci ilin 3-cü rübü üzrə hesablanmış əmlak vergisinin cari ödəmələri bu ilin avqust ayının 15-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**2018-ci ilin iyul ayına görə vergi ödəyiciləri tədiyyəçisi olduqları**

- Əlavə dəyər vergisi bəyannaməsini;
- Aksiz bəyannaməsini;
- Yol vergisi bəyannaməsini;
- Mədən vergisi bəyannaməsini;
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsini;
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

**cari ilin avqustun ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim etməli və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- **Daşınmaz əmlak** təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş verginin bəyannaməsi cari ilin iyul ayının 20-dən gec olmayaraq notariuslar tərəfindən vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).
- **Muzdlu işlə əlaqədar 2018-ci ilin iyul ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan** vergi cari ilin **avqust ayının 20-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməlidir (ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən bəyannamə illik - növbəti ildə yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri tərəfindən 3-cü rüb üzrə bəyannamə cari ilin oktyabr ayının 22-dən gec olmayaraq təqdim edilməlidir).
- **Xüsusi notariusların 2018-ci ilin iyul ayı üzrə hesabladığı gəlir vergisi** cari ilin **avqust ayının 20-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməlidir (3-cü rüb üzrə bəyannamə cari ilin oktyabr ayının 22-dən gec olmayaraq təqdim edilməlidir).

**Qeyd: 2018-ci il oktyabrın 20-si qeyri-iş gününə təsadüf etdiyi üçün cari ilin 3-cü rübü üzrə bəyannamələrin təqdim edilməsinin son müddəti oktyabrın 20-nə keçirilib.**

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

elektron xidmətlər

# Banklarda hesab açılması üçün şəhadətnamə-dublikatın verilməsi

Bu elektron xidmət vergi ödəyicilərinin Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı vasitəsilə və ya «195-1» Çağrı Mərkəzinə müraciəti əsasında ərizənin elektron qaydada göndərilməsini və həmin ərizə əsasında şəhadətnamə-dublikatın verilməsini əhatə edir.

***İcra müddəti***
Şəhadətnamə-dublikat - müvafiq ərizə elektron qaydada vergi orqanına göndərildikdən sonra iki gündən gec olmayaraq verilir və elektron qaydada vergi ödəyicisinin ərizəsində qeyd edilmiş müvafiq bankın informasiya sisteminə göndərilir.

***Elektron xidmətin istifadəçiləri***
Elektron xidmətdən İnternet Vergi İdarəsi Portalı vasitəsilə həyata keçirildikdə Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada vergi ödəyicisinin eyniləşdirmə nömrəsini (VÖEN) almış və vergi ödəyicisi ilə vergi orqanı arasında «Elektron sənəd mübadiləsi haqqında» müqavilə əsasında istifadəçi kodu, parol, şifrə və ya «Elektron imza və elektron sənəd haqqında» Qanunun müddəalarına əsasən gücləndirilmiş elektron imza əldə etmiş şəxslər istifadə edilə bilər.
Elektron xidmət Vergilər Nazirliyinin Çağrı Mərkəzi vasitəsilə həyata keçirildikdə, bu xidmətdən Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada VÖEN almış və «Elektron imza və elektron sənəd haqqında» Qanunun müddəalarına əsasən Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi tərəfindən verilmiş gücləndirilmiş elektron imza olan «ASAN imza» əldə etmiş şəxslər yararlana bilərlər.

***Təqdimolunma preseduru:***
Elektron xidmət İnternet Vergi İdarəsi Portalı vasitəsilə həyata keçirildikdə ondan:
1. https://www.e-taxes.gov.az;
2. http://www.e-gov.az;
3. http://www.taxes.gov.az;
4. http://www.dxr.az.
internet ünvanları vasitəsilə istifadə oluna bilər.
Elektron xidmətdən Vergilər Nazirliyinin Çağrı Mərkəzinin nömrəsini (195-1) yığmaqla faydalanmaq mümkündür.

***İnzibati prosedurlar***
Bu xidmətin göstərilməsi üçün hər hansı sənəd tələb olunmur, sadəcə sorğu formalaşdırılır.
Elektron xidmət İnternet Vergi İdarəsi Portalı vasitəsilə həyata keçirildikdə istifadəçi qeyd edilən internet səhifələrində Vergilər Nazirliyi tərəfindən göstərilən elektron xidmətlərin siyahısından «Banklarda hesabların açılması üçün şəhadətnamə-dublikatın verilməsi» xidmət növünü seçir, sonra Vergilər Nazirliyi tərəfindən verilmiş istifadəçi kodu, parol, şifrə və ya gücləndirilmiş elektron imza vasitəsilə İnternet Vergi İdarəsi Portalının «Onlayn kargüzarlıq və E-VHF» bölməsinə daxil olur.
Elektron xidmət Vergilər Nazirliyinin Çağrı Mərkəzi vasitəsilə həyata keçirildikdə istifadəçi «195-1» nömrəsinə zəng edir.

***Sorğunun yerinə yetirilməsi***
Elektron xidmət İnternet Vergi İdarəsi Portalı vasitəsilə həyata keçirildikdə şəhadətnamə-dublikatın alınması üçün elektron ərizənin doldurularaq təqdim edilməsi istifadəçinin əməliyyatları aparması tezliyindən asılı olaraq yerinə yetirilir. Şəhadətnamə-dublikat isə müvafiq ərizə elektron qaydada vergi orqanına göndərildikdən sonra 2 gündən gec olmayaraq verilir.
Elektron xidmət Vergilər Nazirliyinin Çağrı Mərkəzi vasitəsilə həyata keçirildikdə şəhadətnamə-dublikatın alınması üçün elektron ərizə üzrə tələb olunan məlumatların istifadəçi tərəfindən təqdim edilməsi, Çağrı Mərkəzinin təmsilçisi tərəfindən həmin məlumatların sistemə daxil olunması, məlumatların düzgünlüyünün müraciət etmiş şəxs tərəfindən təsdiq edilməsi tezliyindən asılı olaraq yerinə yetirilir. Şəhadətnamə-dublikat isə müvafiq ərizə elektron qaydada vergi orqanına göndərildikdən sonra 2 gündən gec olmayaraq verilir.
Vergi ödəyicisinin «Şəhadətnamə-dublikatın alınması üçün ərizə»si qəbul olunur və ərizənin əsasında bankda hesabın açılması üçün şəhadətnamə-dublikat verilir. Şəhadətnamə-dublikat elektron qaydada vergi ödəyicisinin ərizəsində qeyd edilmiş müvafiq bankın informasiya sisteminə göndərilir.
Elektron xidmətin göstərilməsi zamanı aparılan proseslərə Vergilər Nazirliyinin proqram təminatı vasitəsilə onlayn qaydada nəzarət edilir.

**FƏXRİYYƏ**

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

**2018-ci il yanvarın 1-dən** etibarən, statusundan asılı olmayaraq, **bütün vergi ödəyiciləri** tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-faktura təqdim olunmalıdır.

Vergi Məcəlləsinə əsasən, sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim olunması ilə bağlı elektron qaimə-faktura vermək vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir.

«Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura «Onlayn rejimdə» Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən «Asan imza») vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə olunmaqla «Oflayn rejimdə» tərtib edildikdən və elektron imza (o cümlədən «Asan imza») vasitəsilə imzalandıqdan sonra malların, işlərin və xidmətlərin alıcısına göndərilir.

Odur ki, sahibkarlıq fəaliyyəti məqsədləri üçün mal (iş, xidmət) alınarkən həmin malların (işlərin, xidmətlərin) alınmasını təsdiq edən elektron qaimə-faktura satıcıdan tələb edilərək alınmalıdır.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda alıcıya təqvim ili ərzində belə hala -

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və ya vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

beynəlxalq panoram

## Böyük Britaniyanın Aİ-nin ƏDV zonasını tərk etməsi təsdiqlənib

Böyük Britaniya qanunvericilərinin qəbul etdikləri qanun layihəsinə əsasən, ölkə Avropa İttifaqını (Aİ) tərk edəndən sonra Aİ-nin əlavə dəyər vergisi (ƏDV) zonasından da çıxmalı və özünün ayrıca ƏDV rejimini formalaşdırmalıdır. Deputatlar hesab edirlər ki, belə bir addımın atılması keçid dövrünün şərtlərinin razılaşdırılması ilə bağlı hökumətin göstərdiyi səyləri dəstəkləməklə «Breksit»in şirkətlərə təsirini yumşalda bilər.

Böyük Britaniyanın Aİ-nin ƏDV zonasında iştirakını istisna etməsi parlamentin aşağı palatasında qəbul edilmiş dörd düzəlişdən biridir. Aİ-yə edilmiş təklifə görə, ən müstəsna halda İrlandiya əvvəlki kimi Aİ-nin ƏDV zonasında iştirak edə bilər ki, İrlandiya Respublikası ilə Şimali İrlandiya arasında sərt sərhədin yaranmasının qarşısı alınsın. İrlandiyada sərhəd məsələsinin razılaşdırılmasının mümkün olmaması isə Aİ üçün məhək daşına çevriləcək.

Gözlənilir ki, 303 səs lehinə, 300 səs əleyhinə olmaqla qəbul edilmiş düşəliş sərt sərhəd çəkməkdən yan keçmək üçün Aİ hökumətinin işini xeyli çətinləşdirəcək və beləliklə, «Breksit»in ən sərt variantına gətirib çıxaracaq.

Ekspertlərin qiymətləndirməsinə əsasən, hökumət qanunvericiliyə dörd düzəlişi təsdiqləməklə hazırda «Breksit»dən sonra ƏDV sistemini yaratmağa səy göstərir. Böyük Britaniya Aİ-nin ƏDV zonasından çıxdığı halda, başqa məsələlərlə yanaşı, öz qanunlarını Aİ-nin ƏDV ilə bağlı qanunvericiliyinə uyğunlaşdırmalı və ƏDV məsələlərinə aid Avropa Məhkəməsinin qərarları ilə hesablaşmalı olacaq. Bu isə Britaniyanın Aİ müəssisələri ilə maliyyə əməliyyatları aparan şirkətləri üçün ƏDV yükünün ağırlaşmasına səbəb olacaq.

Ümumilikdə bu dəyişiklikəri belə qiymətləndirmək mümkündür ki, Breksit sazişi ilə bağlı keçid dövrünə aid daşınışıqlar razılaşma ilə nəticələnməyə bilər, başqa sözlə, Böyük Britaniya Aİ-ni keçid dövrü olmadan 2019-cu il mart ayının 29-da tərk edə bilər.

Parlamentin aşağı palatası qeyd edilən düzşəlişlərlə vergitutma və transsərhəd ticarət barədə qanun layihəsini qəbul etmişdir. Layihə növbəti mərhələdə Lordlar Palatasına təqdim ediləcək.

## Aİ ilə Yaponiya arasında iqtisadi əməkdaşlıq sazişi imzalanıb

Hazırda mövcud olan şərtlərə əsasən, Avropa İttifaqı (Aİ) şirkətləri hər il Yaponiyaya ixrac etdikləri mallar üçün təxminən 1 milyard avro məbləğində rüsum ödəyirlər. Bu sazişin imzalanması həmin rüsumların böyük hissəsinin aradan qaldırılmasına şərait yaradacaq.

Bu sazişin şərtləri ilə bağlı danışıqlar hələ 2013-cü ildən başlanmışdı. Tərəflər arasında prinsipial razılaşma 2017-ci ilin iyul ayında əldə edilmiş, danışıqlar isə dekabr ayında başa çatdırılmışdı. Sazişlə bir sıra pendir məhsullarına (hazırda bu məhsullar üçün Yaponiya 29,8 faizlik rüsum tutur) və şəraba (hazırda şərablar üçün orta hesabla 15 faizlik rüsum tutulur) görə tutulan rüsumlar aradan qaldırılacaq. Aİ Yaponiyaya mal ətinin ixracını əsaslı şəkildə artıra biləcək, təzə ət üçün rüsumsuz ixrac mümkün olacaq.

Bundan əlavə, saziş Yaponiya xidmət bazarlarına və tadarük bazarlarına yol açır.

Aİ-nin ticarət üzrə komissarı xanım Sesiliya Malmstrom demişdir: «Yaponiya ilə birlikdə biz bütün dünyaya nümayiş etdiririk ki, iki ən nəhəng iqtisadiyyata malik güc həm birtərəfliliyə, həm də proteksionizmə qarşı çıxaraq əvvəlki kimi açıq ticarətə etibar edirlər. Bu sazişin iqtisadi üstünlükləri göz qabağındadır - milyardlarla avro rüsuma qənaət olunması, gömrük prosedurlarının sadələşdirilməsi və ticarətin yolundakı əngəllərin aradan qaldırılması. Bütün bunlar isə hər iki tərəfə aid şirkətlərə ixracatı artırmağa artırmağa və bizneslərini genişləndirməyə imkan yaradacaq».

Aİ ekspertlərinin qiymətləndirməsinə əsasən, saziş tam qüvvəyə minəndən sonra Aİ-dən mal və xidmətlərin ixracını 13 faiz artırmağa şərait yaradacaq.

Saziş Avropa və Yaponiya parlamentləri tərəfindən ratifikasiya edildikdən sonra - 2019-cu ildə qüvvəyə minə bilər.

## Moldova parlamenti vergi islahatını təsdiqləyib

Ölkə parlamenti ikinci və son oxunuşda yeni vergi islahatlarını əhatə edən qanun layihəsini təsdiqləmişdir. Moldovanın iqtisadi həyatı üçün inqilabi hadisə kimi qiymətləndirilən bu islahat fiziki şəxslərə vahid gəlir vergisi dərəcəsinin tətbiqini, eləcə də işəgötürənlərin sosial sığorta fonduna köçürdüyü vəsaitin azaldılmasını nəzərdə tutur.

Beləliklə, Moldovada hazırda fiziki şəxslərdən tutulan 7 faizlik və 18 faizlik gəlir vergisinin dərəcəsi 12 faiz müəyyənləşdirilmişdir. Bundan əlavə, fiziki şəxslər üçün gəlir vergisindən azadolma həddinin məbləği illik 11.280 leydən (1159,5 manat) 24 minə (2467 manat) qaldırılmışdır. 24 min ley 2019-cu il üçün hesablanmış yaşayış minimumunun səviyyəsidir. Sahibkarlığa gəldikdə, parlament işəgötürənlərin sosial sığorta büdcəsinə köçürmələrinin məbləğini 23 faizdən 18 faizə endirməyi qərara almışdır.

Bu qanun layihəsini işləyib hazırlamış ekspertlərin mövqeyinə görə, qanunvericilikdə aparılmış ciddi dəyişikliklər əməkhaqqından tutulan vergi yükünün yüngülləşdirilməsinə, biznesin rəqabətədavamlılığının artmasına müsbət təsir göstərəcək və son nəticədə işçilərin və əhalinin real gəlirlərinin artmasına şərait yaradacaq.

Parlamentin İqtisadiyyat, büdcə və maliyyə komissiyasının sədri Ştefan Kryanqe qeyd etmişdir ki, vergi islahatına keçid ölkədə əməkhaqqının zərfdə verilməsi fenomeninin aradan qaldırılmasına yönəldilmişdir: «Ümidvarıq ki, bu islahat ilk növbədə vətəndaşlarımızın gəlirlərinin artmasına müsbət təsir göstərəcək. Bu isə o deməkdir ki, gəliri az olan vətəndaşlar vergi ödəməyəcəklər. Belə bir addımın atılması kompleks tədbirlərin görülməsini tələb edir».

## ABŞ ticarət müharibəsinin səbəbkarı kimi ittiham edilir və ittiham edir



G20 ölkələrinin Buenes-Ayres şəhərində keçirilmiş yığıncağında Fransanın iqtisadiyyat və maliyyə naziri Bruno Le Mer ABŞ-la Avropa arasında ticarət müharibəsinin başlandığını bildirmişdir: «Ən böyük iqtisadiyyata malik iyirmi dövlətin hamısında başa düşürlər ki, ticarət müharibəsi reallıqdır və burada dünya iqtisadiyyatının artımı üçün risk mövcuddur». Nazir qeyd etmişdir ki, indiki şəraitdə dialoq üçün ilk addımı ABŞ atmalıdır, bunsuz Avropa komissiyasının öz təkliflərini formalaşdırması mümkün deyildir.

Bruno Le Merin sözlərinə görə, Avropa mallarına ABŞ tərəfindən yeni rüsumların tətbiq ediləcəyi təqdirdə Avropanın cavab tədbirləri görməkdən başqa çarəsi qalmayacaq. Vaşinqton alüminium və polad üçün tətbiq etdiyi idxal rüsumundan imtina etmədiyi müddətcə Avropa İttifaqı ABŞ ilə azad ticarət haqqında danışıqları müzakirə etməyəcək. Xatırlatmaq yerinə düşər ki, bundan bir qədər əvvəl ABŞ Prezidenti Avropa İttifaqından idxal edilən avtomobillər üçün irimiqyaslı rüsumlar tətbiq olunacağını bəyan etmişdi.

Qeyd edək ki, ABŞ-ın yaratdığı ticarət gərginliyi Avropa ilə məhdudlaşmır və əks ittihamlarla da qarşılaşmaq mümkündür. Mərkəzi Kəşfiyyat İdarəsinin Asiya regionu üzrə eksperti Maykl Kollinz öz açıqlamasında Çin Xalq Respublikasını ABŞ-a qarşı soyuq müharibə aparmaqda günahlandırmışdır. Onun rəyinə əsasən, Pekinin niyyəti ABŞ-ı «aparıcı dünya dövləti mövqeyindən» salmaqdır. Ekspert qeyd etmişdir ki, Çinin hakim dairələri ABŞ-la açıq qarşıdurmaya girişmək fikrində olmasalar da, ölkənin dünyadakı nüfuzunu aşağı salmağa çalışırlar. «Onların bizə qarşı əməlləri, öz mahiyyətinə görə, soyuq müharibədir, lakin bu bizə tanış olan soyuq müharibə deyildir».

İyunda ABŞ Prezidenti Donald Tramp dəyəri 50 milyard dollar olan Çin mallarına 25 faizlik rüsum tətbiq edilməsi ilə bağlı qərar vermişdi. Buna cavab olaraq Çin də ABŞ-dan gələn 659 adda məhsula 25 faizlik rüsum tətbiq etdi. Qarşılıqlı şəkildə artırılmış gömrük rüsumları iyulun 6-dan qüvvəyə mindi.

İyulun 11-də isə məlumat yayıldı ki, rəsmi Vaşinqton Çinlə ticarət müharibəsinin yeni mərhələsinə hazırlaşır və bu dəfə 200 milyard dollar dəyərində Çin mallarına görə əlavə rüsumlar tutulacaq. Bu məsələnin araşdırılması üçün Çin hökuməti Ümudünya Ticarət Təşkilatına müraciət etmişdir.

ABŞ-ın rəsmi statistikasına əsasən, 2017-ci ildə ABŞ-a idxal edilən Çin mallarının dəyəri 505,5 milyard dollar təşkil etmişdir, Çinə göndərilən Amerika mallarının dəyəri isə bundan dəfələrlə az - cəmi 129,9 milyard dollardır.

## Belarusda kosmik cihaz istehsalçıları mənfəət vergisindən azad edilib

Prezident Aleksandr Lukaşenkonun imzaladığı fərmana əsasən, kosmik cihazqayırma sahəsində çalışan şirkətlərin özlərinin gördükləri işlərdən və göstərdikləri xidmətlərdən əldə etdikləri mənfəət vergidən azad edilib. Bu vergi güzəşti sayəsində sərbəst qalacaq pul vəsaitlərini müəssisələr yeni avadanlıqların alınmasına, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinə və xidmətlərin göstərilməsinə yönəldəcəklər.

Fərman Dövlət Hərbi Sənaye Komitəsinin təqdimatı əsasında verilmişdir və 2023-cü ilin sonuna qədər qüvvədə olacaq.

## Bəyan edilməmiş gəlirlərin könüllü açıqlanması proqramı bərpa oluna bilər

İtaliyanın baş naziri Paolo Centiloni bildirmişdir ki, hökumət açıqlanmamış offşor aktivləri və gəlirləri üçün məlumatların könüllü açıqlanması proqramına yenidən başlanması imkanlarını nəzərdən keçirir.

Keçən il noyabrın 30-da bağlanmış proqram çərçivəsində verilmiş 130 minə yaxın ərizə emal edildikdən sonra İtaliyada vergi yığımının təxminən 4 milyard avro məbləğində artacağı gözlənilir.

Yenidən nəzərdən keçiriləcək proqram uçotdankənar gəlirlərə yönəldilə bilər. Bununla uçotdan yayınan vergi ödəyicilərinə imkan yaradılacaq ki, özlərinin offşor aktivlərini vergi informasiyasının mübadiləsi üçün OECD-nin «Hesabatlılığın ümumi standartı»nın tətbiqinə başlanana qədər tənzimləsinlər.

Keçmiş proqram çərçivəsində iştirakçılar, administrativ və cinayət sanksiyalarının əsaslı şəkildə azaldılması şərti ilə, öz aktivlərini açıqlayaraq ödənilməmiş bütün vergiləri ödəməli idilər.




krossvord

**Yuxarıdan aşağı:** 1.Rusiyanın İrkutsk vilayətində şəhər; 2.Azərbaycanda nəşr olunan qəzet; 3.«Dədə Qorqud» filmində (1975) Beyrək obrazını ifa edən aktyorun adı; 4.Cənubi Qafqazda Göyçə gölündən Van gölünə qədər olan ərazilərdə yaranmış dövlət; 5.Azərbaycanın milli hərbi rəqsi; 6.Qısa xülasə; 9.Azərbaycan milli mətbəxində xüsusi yeri olan xörək; 13.Hun hökmdarı (e.ə. 114-105-ci illər); 15.Kiçik ariya; 16.İkinəfərlik velosiped; 17.Səlcuqlar dövünə aid irsi rütbə. Şəmkir rayonunda kənd; 18.Hərbi gəmilər sinfi, həmçinin SSRİ-də kompüter markası; 20.Türkiyədə şəhər; 21.Braziliyada çay. **Soldan sağa:** 1.Böyük Qafqaz silsiləsində - Qusar və Qəbələ rayonları ərazisində zirvə; 5.Zaqatala rayonunda kənd; 7.Balonun içində olan qazın qaldırıcı qüvvəsi sayəsində havaya qalxan havadan yüngül uçucu aparat (hava şarı); 8.Türkiyədə şəhər; 10.Müəyyən əzələnin və ya əzələ qrupunun bir müddət sıxılıb-yığılması, qıc olması; 11.Kimyəvi element (metal); 12.«Dədə Qorqud» dastanında adı keçən ən qədim simli çalğı alətlərindən biri; 14.Xarici banka saxlanılmaq üçün qoyulmuş qiymətli kağız və qızıl, hər hansı bir ölkə bankının xarici bankdakı valyuta vəsaiti; 19.Aralarında olan izdivac və ya qohumluq əlaqələrinə görə bir şəxsin digər şəxsə qanuna uyğun olaraq verməli olduğu dolanacaq xərci; 21.Üst paltar üçün naxışlı yun parça; 22.Stolüstü oyun; 23.Bir və ya bir neçə linzadan ibarət optik cihazın hissəsi; 24.Tarixi mətnlərdə başçı, rəis, rəhbər, eləcə də ağa, bəy mənaları daşıyan söz; 25.Hərbi rütbə.



Dədə Qorqud» filmindən (1975) epizod

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Miçman; 2.Molyusk; 3.Arısu; 4.İbadan; 5.Sabir; 6.Dekabr; 9.Bakı; 13.Arka; 15.Kadastr; 16.Abajur; 17.Comərd; 18.Tribun; 20.Ramiz (Mirişli); 21.Zumpf. **Soldan sağa:** 1.Memuarist; 5.Süd; 7.Çaldıran; 8.Abak; 10.Alutu; 11.Anaerob; 12.Aksay; 14.«Vışka»; 19.Barokko; 21.Zadar; 22.Jeme; 23.Təhmasib; 24.İranda şəhər; 25.Xudafərin.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

idman

## Dünya çempionatına ev sahibliyi edəcəyik




Bakı 2021-ci ildə batut üzərində tullanma və tamblinq üzrə dünya çempionatını qəbul edəcək. Beynəlxalq Gimnastika Federasiyasının (FIG) İcraiyyə Komitəsi bu qərarı Ficidə keçirilən növbəti iclasında qəbul edib. Avropa Gimnastika İttifaqının (UEG) prezidenti Fərid Qayıbov iclasda iştirak edib.

Azərbaycan Gimnastika Federasiyasının (AGF) məlumatında bildirilir ki, son üç ildə Azərbaycan paytaxtı «uçan» gimnastlar arasında iri startlara ev sahibliyi edib: 2016-2017-ci illərdə burada Dünya Kuboku yarışları, bu mövsümdə isə Avropa çempionatı keçirilib. Avropa çempionatı ölkəmizin idman həyatında parlaq hadisələrdən birinə çevrilib. Artıq 2021-ci ilin mundialını keçirmək də Bakıya həvalə olunub. Bu çempionat respublikada böyük yarışların təşkili işində yeni səhifə açacaq. Çempionatın tarixi də artıq məlumdur. O, yaş qrupları arasında batut üzərində tullanma üzrə Dünya Oyunları ərəfəsində - noyabrın 11-14-də keçiriləcək. «Uçan» gimnastlar üçün Bakı çempionatı Olimpiadadan sonra ən əhəmiyyətli yarış olacaq. Çempionatda həm adlı-sanlı, həm də gənc idmançılar yarışacaqlar.

FIG-in prezidenti Morinari Vatanabe İcraiyyə Komitəsinin qərarına münasibət bildirərək deyib: «Biz şadıq ki, böyük çempionatları əvvəllər idmanın bu növləri - batut üzərində tullanma və akrobatika üzrə dünya çempionatları keçirməyən ölkələrə etibar ediblər. Belə münasibət həmin idman növlərinin bu regionlarda inkişafına xidmət edir».

Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyeva əmin olduğunu bildirib ki, ölkədə batut gimnastikası və tamblinq üzrə dünya çempionatının keçirilməsi bu idman növünün daha da populyarlaşmasına və inkişafına, habelə idman sahəsində beynəlxalq əlaqələrin möhkəmlənməsinə kömək edəcək.

Beləliklə, Azərbaycan idmanın gimnastika növü üzrə iki çempionatı birdən qəbul edəcək. 2019-cu ildə burada bədii gimnastika üzrə dünya forumu, 2021-ci ildə batut üzərində tullanma və tamblinq üzrə mundial keçiriləcək.

## Yığma komandamız komanda hesabında birinci oldu




İyulun 22-29-da İtaliyanın Milan şəhərində 15 və 17 yaşadək yeniyetmə oğlan və qızlar arasında ağır atletika üzrə Avropa birinciliyi başa çatıb. 40-dək ölkədən 300-dən çox atletin iştirak etdiyi turnirdə Azərbaycan yığmasının üzvləri də körpücük üzərinə çıxıblar. Onlar tarixi uğura imza ataraq komanda hesabında Avropa birinciliyinin qalibi adına layiq görülüblər.

Yeniyetmələrdən ibarət yığma komandamız toplamda 4 qızıl, 1 gümüş və 2 bürünc, ümumilikdə isə ayrı-ayrılıqda birdən və təkanla qaldırma hərəkətləri, həmçinin toplamdakı medallar nəzərə alınmaqla 22 medal qazanıb. Bu göstəricidə Azərbaycan 25 medal qazanan Türkiyə yığmasından sonra ikinci olub.

17 yaşadək olan qız ağır atletlərimiz 115 xalla 12-ci, oğlan ağır atletlərimiz isə 471 xalla (4 qızıl, 3 gümüş və 3 bürünc medal) dördüncü yerə çıxıblar. 15 yaşadək olan qız ağır atletlərimiz Avropa birinciliyinə 44, 48, 53, 58, 63, 69 kiloqramda cəmi yeddi nəfərlə qatılıblar. Toplam 409 xal toplayan qızlardan ibarət yığmamız komanda hesabında Avropada üçüncü yeri tutmağı bacarıb. Millimiz yalnız İtaliya və Türkiyədən geri qalıb.

15 yaşadək olan yeniyetmə oğlan ağır atletlərdə isə yığmamız 50, 56, 62, 77 və 94 kiloqram çəki dərəcələrində cəmi səkkiz nəfərlə təmsil olunub. 6 qızıl, 4 gümüş və 3 bürünc medal qazanan yığmamız bu nəticə ilə medal hesabında Avropanın ikinci ən güclü komandası olub. Medallarla yanaşı, atletlərimiz milli komandanın aktivinə xallar da yazdırıblar. Nəticədə yığmamızın üzvləri cəmi 550 xal toplayıblar. Bunun sayəsində Azərbaycan yığması Bolqarıstan və Türkiyə millilərini arxada qoyaraq komanda hesabında Avropa birinciliyinin qalibi adına layiq görülüb.

## Ronaldu həbsdən qurtuldu




İspaniyanın Vergi Agentliyi İtaliyanın «Yuventus» futbol klubunun Kriştianu Ronaldu ilə müqavilə bağlamasına razılıq verib. Portuqliyalı ulduz futbolçu vergidən yayındığına görə 2 il müddətinə azadlıqdan məhrum ediləcək, amma həbsxana həyatı yaşamayacaq. Əldə olunan razılığa görə, Ronaldunun cəzası şərti xarakter daşıyacaq, bunun müqabilində isə o, özünü müqəssir elan edəcək və 19 milyon avroya yaxın cərimə ödəyəcək.

Qeyd edək ki, 2009-cu ildən İspaniyanın «Real» Madrid klubunda çıxış edən məşhur futbolçu 2011-2014-cü illər ərzində 14,7 milyon avro məbləğində vergidən yayınıb. Bu səbəbdən də iyulun 10-da «Yuventus»a transferi açıqlanan Kriştianunun vergi qalmaqalı ilə bağlı bu kluba keçidi sual altında idi.

## Azərbaycanlı jurnalistlərin qələbəsi

Ukraynanın paytaxtı Kiyevdə səfərdə olan azərbaycanlı idman jurnalistlərindən ibarət futbol komandası ukraynalı həmkarları ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 və ümumilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunan yoldaşlıq görüşü keçirib. «Hidropark» İdman Kompleksinin stadionunda keçirilən qarşılaşma azərbaycanlı jurnalistlərin 10:6 hesablı qələbəsi ilə yekunlaşıb. Maraqlıdır ki, meydan sahiblərinin heyətində keçmiş SSRİ yığmasının və Kiyev «Dinamo»sunun tanınmış veteran futbolçusu İvan Yaremçuk da çıxış edib.

Görüşü Azərbaycanın Ukraynadakı səfirliyinin, Birləşmiş Ukrayna Azərbaycanlıları Konqresinin rəhbərliyi və diaspora nümayəndələri də izləyib.

mozaika

Azərbaycan mətbəxi

## Kulinariya aləminə səyahət




Azərbaycanda ABŞ-dan gəlmiş turistlər üçün kulinariya aləminə səyahət təşkil edilib. Bakıdan başlanan ekskursiya Quba, İsmayıllı, Qəbələ, Şəki, Qax və Balakəndə davam etdirilib. Səyahət proqramına rəngarəng mədəniyyət və kulinariya ənənələri olan Xınalıq, Qırmızı qəsəbə, Lahıc, İvanovka, Nic və İlisu kimi yaşayış məntəqələri ilə tanışlıq və onların öyrənilməsi də daxil edilib.

Proqrama restoranlarda baş aşpazlar tərəfindən özəl kulinariya dərslərinin keçilməsi, ərzaq bazarları və şərab müəssisələrinə, habelə tarixi məkanlar və muzeylərə, sənətkar emalatxanalarına ekskursiyalar, rəssamlarla görüşlər və digər mədəni tədbirlər daxil edilib. Səyahətdə tanınmış kulinariya tarixçisi, «Cənubi Kaliforniyanın kulinariya tarixçiləri» təşkilatının prezidenti Çarlz Perri və təşkilatın digər təmsilçiləri, kulinariya və mədəniyyət sahələrində professorlar və həvəskar tədqiqatçılar iştirak ediblər.

Amerikalı səyahətçilər üçün ilk dəfə keçirilən bu ekskursiyanın təşəbbüskarı «Nar və zəfəran: Azərbaycana kulinariya səyahəti» kitabının müəllifi Fəridə Buyuran olub. Müəllifin ingilis dilində işıq üzü görmüş 336 səhifəlik kitabında oxuculara Qərb ölkələrində hazırlanması üçün uyğunlaşdırılmış qəlyanaltı və salatlar, şorba, xəmir, ət, tərəvəz, yumurta xörəkləri, çörək növləri, plovlar, içkilər və çərəzlərdən ibarət 200 resept təklif edilir.

kosmos

## «Facebook» orbitə peyk buraxacaq

«Hazırda yeni «Athena» («Afina») internet peykinin yaradılması ilə bağlı ciddi tədbirlər görülür. İndi biz layihə haqqında konkret danışa bilmirik, lakin belə düşünürük ki, peyk texnologiyaları növbəti nəslin genişzolaqlı internet infrastrukturunun inkişafında vacib rol oynayacaq. Peyk şəbəkəyə girişin məhdud olduğu və ya heç olmadığı ucqar kəndləri belə internetlə təmin edəcək», - «Facebook» şirkətinin yaydığı açıqlamada bildirilib.

Qeyd edək ki, indi peyk sənayesi daha çox özəl şirkətlərin diqqətini cəlb edir.

Məsələn, İlon Maskın «SpaceX» şirkəti «Starlink» peyk sistemini hazırlayır ki, bu sistem bütün Yer kürəsini genişzolaqlı şəbəkə ilə əhatə edən bir neçə min peykin orbitə çıxışını nəzərdə tutur.

sağlam həyat

## Otaq bitkiləri havaya nəzarət edə bilər



ABŞ-ın Tennessi Universitetinin alimləri evdəki hava təmizliyinə nəzarət üçün otaq bitkilərindən istifadəni təklif ediblər. Onların fikrincə, modifikasiya edilmiş otaq bitkiləri havadakı zərərli maddələrin detektoru ola bilər.

Bitkilər havadakı zərərli maddələrlə təmasda olduqda rəngini və parıltısını dəyişə bilir. Bu, meduzadan əldə olunan xüsusi yaşıl floresan zülalın bitkiyə əlavə edilməsindən irəli gəlir.

Yeni yaradılan bitki növləri radon kimi təhlükəli maddələrə və havada insan sağlamlığı üçün təhlükəli olan birləşmələrə reaksiya verə biləcək.

sərvətimiz

## Həm mənəvi, həm də maddi...



Dünyada keçirilən hərraclarda böyük maraq göstərilən məhsullardan biri Azərbaycan xalçalarıdır. 1998-ci il oktyabrın 15-də «Christies» hərrac evində keçirilən hərracda XVIII əsrin sonlarına aid «Əjdahalı» çeşnisi ilə toxunan xalça 58 min 747 ABŞ dollarına satılıb. Sonradan həmin hərrac evində XVIII və XIX əsrlərdə toxunan 12 qədim Azərbaycan xalçası hərraca çıxarılıb və XIX əsrin birinci yarısında toxunan bir xalça 152 min 592 ABŞ dollarına satılıb.

2006-cı ilin dekabr ayında ABŞ-ın Pensilvaniya ştatının Filadelfiya şəhərində yaşayan Robert Montqomeri Skott tərəfindən hərraca çıxarılan, XVIII əsrin sonu, XIX əsrin əvvəllərində toxunan Azərbaycan xalçası 341 min 625 ABŞ dollarına satılıb.

2013-cü ildə Vyanada, Londonda, 2014-cü ildə isə Nyu-Yorkda keçirilən hərraclarda XVIII və XIX əsrlərdə toxunmuş Azərbaycan xalçaları satışa çıxarılıb. «Qarabağ», «Qazax-Borçalı», «Təbriz», «Quba» qruplarına aid olan xalçaların ən ucuzu 10 min avroya, ən bahalısı isə 233 min ABŞ dollarına satılıb. Azərbaycan xalçaları 2016-cı il noyabrın 20-də ABŞ-da «Grogan» hərracında Mitçel və Rozali Rudnikin şəxsi kolleksiyasının satışı zamanı Azərbaycan xalçaları ümumilikdə 744 min 200 ABŞ dollarına satılıb.

Bir maraqlı məqam da budur ki, «Azərxalça» hərraclarda satılan xalçaların çeşniləri əsasında yeni məhsullar istehsal edir. Müasir Azərbaycan xalçaçıları tarixi yaddaşın, qədim çeşnilərimizin bərpası ilə milli dəyərlərimizə sahib çıxdıqlarını nümayiş etdirirlər.

texnologiya

## Qeyri-adi klaviatura

Cənubi Koreya mühəndisləri kağız vərəqi kimi əzilən elastik kompüter klaviaturası hazırlayıblar.Qeyri-adi elastikliyə malik innovativ qurğunun daha bir fərqli cəhəti onun süni intellektlə təchiz olunmasındadır. Klaviatura əsasını kompüter təlimi alqoritmlərinin təşkil etdiyi analoqu olmayan texnologiya ilə yaradılıb.

«Biz adi rezin klaviaturalarda tətbiq edilən sensorlardan istifadə etməmək və onların əvəzinə süni intellektin gücündən yararlanmaq qərarına gəldik», - Seçjon Universitetinin professoru Son Ki Son bildirib.

Professorun sözlərinə görə, silikon kauçukdan hazırlanan klaviaturanın daxilində nanoborucuqlar massivindən yaradılan neyron şəbəkəsi quraşdırılıb. Neyroşəbəkə tərəfindən istifadəçinin rezin üzərində çəkilən ayrı-ayrı kvadratşəkilli klavişlərin sıxılması müəyyənləşdirilir.

**Müdriklər deyib ki...**



***«İnsan da kərpic kimidir – bişdikcə bərkiyir».***

***Bernard Şou (1856-1950)***